Известны методы (Митлин, 1986 и др.) увеличения производительности добывающих газоконденсатных скважин путем воздействия, в том числе и циклического (Abasov et al., 1998), на их призабойную зону “сухим” или обогащенным углеводородным газом, в том числе нагретым, а также неуглеводородосодержащим газом. Физической основой этого метода является испарение жидкого в пластовых условиях конденсата газами различного состава, что улучшает приток газа к скважине.

Рассматривается моделирование процесса извлечения ретроградного конденсата из пласта путем закачки нагретого жидкого углеводорода, с использованием теоретической базы неизотермической многокомпонентной фильтрации газоконденсатной смеси (Абасов и др., 2011; Закиров и др., 1988; Курбанов, Розенберг, 1968), в которой за независимые переменные приняты давление, температура и состав смеси. Эта модель позволяет определять состояние многокомпонентной смеси во всех случаях фильтрации при давлениях как выше, так и ниже давления начала конденсации и решать задачи фазового равновесия (Аббасов, 1993; Брусиловский, 2002), находить состав и насыщенность фаз и использовать расчетную методику определения их физических свойств.

При многокомпонентной фильтрации с фазовыми переходами газогидродинамическая и термодинамическая задачи были решены совместно, и метод решения изложен в (Абасов и др., 2011; Фейзуллаев, 2006). При этом взаимовлияние полей давления составов и температуры удается учитывать на основе метода последовательных приближений (Закиров и др., 1988).

С использованием модели изучен процесс истощения V блока VII горизонта глубокозалегающего газоконденсатного месторождения Булла-дениз, и на основе конкретных условий залежи исследован процесс обработки призабойной зоны скважины жидким углеводородом. При обработке принимается, что пропан (в первом случае) или пропан-бутановая фракция (во втором случае) подаются в скважину с более высокой температурой по

сравнению с пластовой. В расчетах разность забойной и пластовой температур задавалась в различных вариантах: 20К, 40К, 60К при пластовой температуре 374 К.

В первом случае расход пропана составляет 50 т, 40 т, 25 т, а последующая прокачка сухого газа соответственно – 100 тыс. $м^3$, 60 тыс. $м^3$, 25 тыс. $м^3$. Результаты расчета представлены на рис. 1-2 на примере скв.39 в виде распределения в призабойной зоне температуры и конденсатонасыщенности соответственно. Из рис.1 видно, что основной прирост температуры происходит в скважине непосредственно у ее забоя.




Рис. 1. Прирост температуры в призабойной зоне скв.39 при нагнетании нагретого пропана




Рис. 2. Изменение конденсатонасыщенности коллектора в призабойной зоне скв.39 после обработки ее нагретым пропаном

Процесс обработки протекает в условиях многоконтактного смешивающегося вытеснения пластовой газоконденсатной смеси пропаном и пропана сухим газом. В результате пропан в нагретой зоне полностью испаряет пластовую жидкость и сам частично испаряется и вытесняется газом. После обработки призабойной зоны на 9-20 м от скважины образуется вал. Максимальная конденсатонасыщенность в нем – 0,35-0,43 (рис.2).

В начальный момент после пуска скважины в эксплуатацию жидкостный вал начинает перемещаться в сторону скважины, занимает некоторое определенное положение и в течение длительного времени эксплуатации остается практически неподвижным во всех рассматриваемых вариантах, первый из которых показан на рис.3. В результате обработки скважины нагретым пропаном продуктивность ее увеличивается в 2,5; 2,2; 2 раза по вышеуказанным вариантам соответственно, и в течение длительного времени она не меняется. За счет повторного накопления ретроградного конденсата постепенно продуктивность скважин ухудшается. Снижение продуктивности в общем случае происходит несколько медленнее, чем после воздействия на призабойную зону скважины нагретым пропаном в том же объеме, но в изотермических условиях.




Рис. 3. Изменение конденсатонасыщенности коллектора в призабойной зоне скв.39 после обработки нагретым пропаном

Срок повышенной продуктивности скв.39 в рассматриваемом варианте составляет 410, 310, 280 суток соответственно (рис.4).




Рис. 4. Изменение дебита газа и конденсата во времени после обработки скв.39 нагретым пропаном




Рис. 5. Изменение дебита газа и конденсата во времени после обработки скв.39 нагретым пропаном

Обработка призабойных зон скважин нагретым пропаном с последующей прокачкой нагретого газа несколько сократит объемы нагнетания рабочих агентов по сравнению с нагнетанием тех же агентов в изотермических условиях для получения одинаковых значений повышенной продуктивности (рис.5).

Во втором случае расход пропан-бутановой фракции жидких углеводородов, в состав которых входят 40% пропана, 60% бутана, составляет 50 т, 40 т, 25 т, а последующая прокачка сухого газа соответственно – 100 тыс.м^3, 60 тыс.м^3, 25 тыс.м^3. Результаты обработки призабойной зоны на примере скв.39 представлены на рис.6-8. На рис.6 показана динамика профиля конденсатонасыщенности призабойной зоны скв.39 для различных вариантов, отмеченых выше. Несколько большее удаление ретроградного конденсата от скважины в первом варианте объясняется более значительным объемом нагнетаемой пропан-бутановой фракции жидких углеводородов. При заданных условиях обработки скважины образовавшаяся в призабойной зоне нагретая оторочка жидких углеводородов вытесняет ретроградный конденсат, смешиваясь с ним. Закачиваемый вслед за пропан-бутановой фракцией жидких углеводородов нагретый сухой газ в свою очередь вытесняет жидкость в условиях многоконтактного смешивающегося вытеснения с интенсивным испарением промежуточных и тяжелых углеводородных компонентов. В итоге образуется зона с конденсатонасыщенностью, меньшей средней по пласту конденсатонасыщенности. Эксплуатация скважины после ее обработки вызывает повторное накопление ретроградного конденсата. Однако этот процесс протекает медленно, и определенное возрастание конденсатонасыщенности отмечается непосредственно у скважины на расстоянии примерно 2- 5м (рис.7). В результате обработки скважины ее продуктивность увеличивается по трем вариантам примерно в 2,3; 2; 1,8 раз соответственно, и на примере скв.39 представлена на рис.8. Срок повышенной продуктивности скв.39 в рассмотренном варианте составляет 400, 290, 260 суток соответственно.




Рис. 6. Изменение конденсатонасыщенности коллектора в призабойной зоне скв.39 после обработки ее нагретой пропан-бутановой фракцией жидких углеводородов




Рис. 7. Изменение конденсатонасыщенности коллектора в призабойной зоне скв.39 после обработки теплой пропан-бутановой фракцией жидких углеводородов




Рис. 8. Изменение дебита газа и конденсата во времени после обработки скв.39 теплой пропан-бутановой фракцией жидких углеводородов

Обработка призабойных зон скважин нагретой пропан-бутановой фракцией жидких углеводородов позволяет сократить объемы нагнетания рабочих агентов по сравнению с нагнетанием тех же агентов в изотермических условиях для получения одинаковых значений повышенной продуктивности примерно в 2,5-3 раза (рис.9).

В целом обработку призабойных зон скважин нагретым пропаном и нагретой пропан-бутановой фракцией жидких углеводородов с последующей прокачкой нагретым газом можно рассматривать как достаточно эффективный процесс удаления ретроградного конденсата и повышения продуктивности газоконденсатных скважин. Закачка нагретого газа позволяет несколько сократить объемы нагнетания сухого газа в ходе обработки скважин, и это компенсирует усложнение технологии самой обработки.




Рис. 9. Изменение дебита газа и конденсата во времени после обработки скв.39 теплой прапан-бутановой фракцией жидких углеводородов

Выводы:

Метод обработки призабойных зон пласта нагретым жидким углеводородным растворителем с последующей прокачкой нагретого газа является высокоэффективным процессом, что и приводит к улучшению показателей добычи газа и конденсата.

ЛИТЕРАТУРА

АБАСОВ, М.Т., АББАСОВ, З.Я., ДЖАЛАЛОВ, Г.И., ФЕЙЗУЛЛАЕВ, Х.А. 2011. Численное моделирование процесса неизотермической многокомпонентной фильтрации газоконденсатной смеси. *Изв. НАН Азербайджана. Науки о Земле*, 2, 48-54.

АБАСОВ, М.Т., ОРУДЖАЛИЕВ, Ф.Г. 1989. Газогидродинамика и разработка газоконденсатных месторождений. Недра. Москва. 262.

АББАСОВ, З.Я. 1993. Методы расчета статического динамического забойного давления в газовых и газоконденсатных скважинах. Элм. Баку. 312.

БРУСИЛОВСКИЙ, А.И. 2002. Фазовые превращения при разработке месторождений нефти и газа. Грааль. Москва. 575.

ЗАКИРОВ, С.Н., СОМОВ, Б.Е., ГОРДОН, В.Я., ПАЛАТНИК, В.М., ЮФИН, П.А. 1988. Многомерная и многокомпонентная фильтрация. Справочное пособие. Недра. Москва. 335.

КУРБАНОВ, А.К., РОЗЕНБЕРГ, М.Д. 1968. Неизотермическая фильтрация многокомпонентных жидкостей. В Ежегоднике ВНИИ: *Теория и практика добычи нефти*. Недра. Москва. 102-109.

МИТЛИН, В.С. 1986. Новые методы расчета воздействия обогащенного газа на газоконденсатный пласт. Дис. на соискание уч. степ. канд. тех. наук. ВНИИГАЗ. 157.

ФЕЙЗУЛЛАЕВ, Х.А. 2006. Численное моделирование обработки призабойной зоны газоконденсатной скважины "сухим" газом с учетом многокомпонентной фильтрации системы. *Изв. НАН Азербайджана. Науки о Земле*, 2, 48-54.

ABASOV, M., ABBASOV, Z., ABASOV, Sh. et al. 1998. Study of hydrocarbon condensate evaporation. *Proceeding of the 2nd International Non Renewable Energy Sources Congress.* Tehran. 1, 258-265.

Рецензент: член-корр. НАН Азербайджана Г.И.Джалалов

© R.Ə.Musayev, Ə.İ.Əsədov, R.H.Allahverdiyeva, 2012

LAY SİSTEMİNDƏ BAŞ VERƏN BƏZİ FİZİKİ-KİMYƏVİ PROSESLƏRƏ ELEKTRİK CƏRƏYANI SAHƏSİ TƏSİRİNİN TƏDQİQİ

R.Ə.Musayev, Ə.İ.Əsədov, R.H.Allahverdiyeva

AMEA Geologiya İnstitutu
AZ1143, Bakı, H.Cavid pr., 29A

Neft çıxarılması geoloji-fiziki nöqteyi-nəzərcə çətin olan yataqlarda hidrodinamiki, fiziki-kimyəvi və kimyəvi üsulların tətbiqi bir o qədər səmərəli olmur. Buna görə də gilli və çox kiçik keçiriciliyə malik olan yataqların neft verimini artırmaq üçün fiziki təsir üsullarından istifadə etmək daha məqsədəuyğundur. Bunu nəzərə alaraq sabit və dəyişən elektrik cərəyanı sahələrinin suların fiziki-kimyəvi parametrlərinin dəyişmə dinamikasına və müxtəlif tip su qarışığının məsaməli mühitdə süzülmə prosesinə təsiri araşdırılmışdır.

Hal-hazırda kimya sənayesində istehsal edilən müxtəlif növ kimyəvi maddələrin istehsalı azalmaqla yanaşı, onların satış qiymətləri də əhəmiyyətli dərəcədə artmışdır. Bu səbəbdən onların neft sənayesinin müxtəlif texnoloji proseslərində tətbiqi də azalmışdır. Buna görə də istismarda olan yataqların səmərəli işlənməsini təmin etməklə neft hasilatını artırmaq üçün iqtisadi və ekoloji cəhətdən daha əlverişli olan fiziki təsir üsulları əsasında işlənilmiş yeni mütərəqqi texnologiyaların tətbiqinə üstünlük verilməlidir.

Qeyd etmək lazımdır ki, neft və qaz yataqlarının işlənilməsi prosesində çoxkomponentli qatışıqların süzülməsi zamanı bir çox fiziki-kimyəvi proseslərin mövcudluğu müşahidə olunur. Bu proseslərə kapillyar, səthi-molekulyar qüvvələr, yerin maqnit sahəsi, laydaxili təbii elektrik gərginliyi və sairə daxildir.

Məlumdur ki, məsaməli mühit skeletini təşkil edən süxur dənəcikləri müxtəlif minerallardan təşkil olunduğu üçün onların səthlərinin elektrik yükü də müxtəlifdir (Симкин, 1979). Süxur səthinin bəzi hissələri müsbət, digər hissələri isə mənfi elektrik yüklərə malikdir. Səthi belə fərqli yüklənmiş məsaməli mühitdə mayelərin hərəkəti üçün əlavə enerjinin tətbiq edilməsi tələb olunur.

Aparılmış təcrübi tədqiqatlarla müəyyən edilmişdir ki, karbohidrogen mayelərin müxtəlif mineraloji tərkibə malik olan süxur nümunəsindən süzülməsi prosesinin göstəricilərinin potensial qiymətləri maqnit sahəsinin təsiri ilə dəyişdirilə bilinər (Мирзаджанзаде и др., 1982). Digər tədqiqat işində (Mirzəcanzadə, Məmmədzadə, 2001) fəzada yerləşdirilmiş müxtəlif qütb istiqamətli maqnit sahəsi qüvvəsinin doymuş karbohidrogen mayelərin su ilə sıxışdırılma prosesinə təsiri öyrənilmiş və aşkar edilmişdir ki, cənubdan şimal qütbü istiqamətindəki gərginlik sıxışdırma əmsalının qiymətini daha çox artırır.

Bir sıra tədqiqat işlərində (Глазунова, Симкин, 1982) dəyişən və sabit elektromaqnit sahələrinin süxur nümunəsinin su süzmə qabiliyyətinə təsiri araşdırılmışdır. Müəyyən edilmişdir ki, bu sahələrin təsiri ilə axma potensialı qiymətinin artması süzülən suyun məsaməli mühit skeleti səthi ilə əlaqəsini gücləndirir, nəticədə suya görə keçiricilik pisləşir.

Nəzəri tədqiqatlarla (Абрукин,1994) müəyyən edilmişdir ki, kollektorun keçiriciliyinin və neftin elektrik keçirmə qabiliyyətinin azalması ilə lay daxilində yaranan elektrokinetik qüvvələr daha təsirli olur.

Bir tədqiqat işində (Кедровский и др., 1986) zəif keçiricilikli süxur nümunəsindən neftin süzülmə sürətinin elektrik cərəyanı sahəsinin istiqamətindən, təsirsiz şəraitə nisbətən, artıb və yaxud azalması amili müəyyən edilmişdir.

Digər tədqiqatlarda (Румянцева, 1965) aşkar edilmişdir ki, süxur nümunəsindən müxtəlif qatılıqlı kalsium xlor məhlullarının süzülməsi prosesində əmələ gələn elektrokinetik qüvvələrin qiymətləri mühitin gilliliyindən, keçiriciliyindən və məsaməliliyindən asılıdır.

Laboratoriya tədqiqatlarına (Табаков и др., 1986) əsasən qeyd edilir ki, natrium xlor duzu ilə hazırlanmış müxtəlif qatılıqlı məhlulların, eləcə də yüksək minerallı lay suyunun elektrokimyəvi işlənilməsi sayəsində onların hidrogen göstəriciləri 12,5-ə qədər yüksəlir ki, bu da neftin sıxışdırma əmsalını artırmağa imkan verir.

Lay sisteminin elektrofiziki parametrlərinə məsaməli mühitin mineraloji tərkibinin təsiri də (Абасов и др., 2010) öyrənilmişdir. Aydın olur ki, süxurun tərkibində gilin miqdarının artması və süxura hopmuş suyun elektrik keçirmə qabiliyyətinin aşağı düşməsi ilə məsaməli mühitin elektrik keçiriciliyi azalır, məsaməlik kəmiyyətinin qiyməti isə artır. Məsaməli mühitin su ilə eyni doyma qiymətində onun miqdarı hidrofob mühitə nisbətən, hidrofil mühitdə daha böyük qiymətə malik olur.

Dəyişən və sabit elektrik cərəyanı sahələrinin müxtəlif tip səthi-fəal maddələrin kvars dənəcikləri səthində adsorbsiyasına və həmin səthdən desorbsiyasına təsiri (Абасов и др., 2008) də tədqiq edilmişdir.

Elektrokinetik hadisələrin yataqların neft hasilatına və maye süzülmə prosesinə təsiri (Казаков, 1983) məqalədə öz əksini tapmışdır. Qeyd edilir ki, elektrokinetik hadisələrini nəzərə almaqla işlənilmə dövründə iştirak etməyən layın neftli durğun sahələrini istismara cəlb etmək mümkündür.

Digər işdə (Симкин, 1979) isə qeyd olunur ki, müəyyən lay şəraitində neftin su ilə sıxışdırılmasında elektrokinetik təzyiqin hidrodinamik təzyiq qiymətindən yüksək olduğu üçün məsaməli mühitdə olan maye süxur skeletini təşkil edən qum dənəcikləri səthinə hopur və nəticədə süzülmə prosesi dayanır. Neft yataqlarının işlənilməsində keçiriciliyin azalmasını, mayenin süzülməsinin dayanmasını və su-neft emulsiyasının əmələgəlməsini müəllif qismən olsa da, elektrokinetik hadisələrlə əlaqələndirir.

Nəzəri üsulla (Ростовский, Селяков, 1989) quyuya elektrik cərəyanı buraxmaqla quyunun veriminin dəyişməsi məsələsi öyrənilmişdir. Aparılmış hesablamalar nəticəsində müəyyən edilmişdir ki, sabit təzyiq düşgüsündə quyudibini elektrik cərəyanı vasitəsilə işləməklə, quyudan çıxarılan mayenin həcmini artırmaq mümkündür.

Neftli laylara elektrik impulsu vasitəsilə təsir etməklə (Linrong, 1994) keçiriciliyin dəyişməsi məsələsinə laboratoriya şəraitində baxılmışdır. Müəlliflər belə nəticəyə gəlmişlər ki, neftli laylara tezliliyi səs tezliliyindən ultrasəs tezliyinə bərabər elektrik impulsu vasitəsilə təsirdə məsaməli mühitdə yeni çatlar əmələ gəlir ki, bu da keçiriciliyi artırır.

Digər tədqiqat işində (Глазунова, 1994) sabit və dəyişən cərəyan vasitəsilə laya və quyudibi sahəyə təsir məsələsi öyrənilmişdir. Laboratoriya şəraitində minerallaşmış su ilə nefti sıxışdırmış və çıxışda alınan mayenin 100% sulaşmasından sonra lay modelinə elektrik cərəyanı verilmiş və model daxilində temperaturun artması müşahidə edilmişdir. Aparılan tədqiqat əsasında müəllif belə nəticəyə gəlmişdir ki, neft verimini artırmaq üçün sulaşmış laylara elektrik sahəsi ilə təsiretmə ən səmərəli üsullardan biri ola bilər.

Aparılan tədqiqat işlərinin təhlili göstərir ki, bu sahədə bir çox məsələlər öz həllini tapmamışdır. Xüsusilə laylara vurulan müxtəlif tərkibli sulara elektrik cərəyanı vasitəsilə təsir etdikdə onların fiziki-kimyəvi xassələrinin dəyişməsi və məsaməli mühitdən mayenin süzülməsi, praktik olaraq, tədqiq edilməmişdir. İşdə, içməli su (Kür çayı suyu), dəniz, qələvi və cod lay sularının (1-ci cədvəl) fiziki-kimyəvi parametrlərinə və məsaməli mühitdən müxtəlif tip su qarışığının süzülmə sürətinə elektrik cərəyanı sahəsinin təsiri öyrənilmişdir.

Birinçi cədvəldə verilmiş məlumatlardan göründüyü kimi, təcrübələrdə istifadə olunan sular tərkiblərindəki ionların miqdarına görə bir-birindən əsaslı surətdə fərqlənirlər.

Məlum olduğu kimi, neft yataqlarının səmərəli işlənilməsini təmin etmək üçün müxtəlif sistemli sulaşdırmalarda bu sulardan geniş istifadə olunur. Deyilənləri nəzərə alaraq bu sulara elektrik cərəyanı vasitəsilə təsir zamanı hidrogen göstəricisi (pH), səthi gərilmə (σ) və xüsusi elektrik keçiriciliyinin (p) dəyişmə dinamikası tədqiq edilmişdir.

Qeyd etmək lazımdır ki, elektrik cərəyanı vasitəsilə təsir iki cür aparıla bilər: birinci variantda laya vurulan su yer səthində elektrik cərəyanı ilə hidrolizləşdirildikdən sonra laya vurulur, ikinci variantda isə elektrik cərəyanı bilavasitə neftli laya verilir və təsir lay daxilində cərəyan edir. Bu proseslərin hər ikisinin böyük təcrübi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq onlara ayrı-ayrılıqda baxılmışdır.

Birinci silsilə tədqiqatlarda suların fiziki-kimyəvi xassələrinin sabit elektrik cərəyanının təsiri nəticəsində dəyişmə dinamikasına məsaməli mühit olmadıqda baxılmışdır (2-ci cədvəl).

Təcrübələr sabit elektrik gərginliyinin 20, 40, 60 və 100 volt və nümunələrdən elektrik cərəyanının keçmə vaxtının 10, 20, və 30 dəqiqə qiymətlərində aparılmışdır.

Tədqiqatlardan əvvəl su nümunələri polyar hissəciklərdən təmizlənmiş təmiz ağ neft sərhədində səthi-gərilmə qiymətləri və hidrogen göstəriciləri təyin edilmişdir. Sonra su nümunəsi uzunluğu 0,3 m olan şüşə boruya doldurulub hər iki başına yer-

ləşdirilmiş elektrod vasitəsilə sabit cərəyan mənbəyinə birləşdirilib lazımi elektrik gərginliyi verilmiş və ampermetr (mA) vasitəsilə cərəyan şiddətinə nəzarət edilmişdir. Təcrübə başa çatdıqdan sonra su nümunəsinin ağ neft sərhədində səthi-gərilmə qiymətləri və hidrogen göstəriciləri təyin edilmiş və xüsusi elektrik keçiriciliyi hesablanmışdır.

İkinci cədvəldə verilmiş məlumatların təhlili göstərir ki, sudan sabit elektrik cərəyanı buraxıldıqdan sonra səthi-gərilmə, hidrogen göstəricisi və xüsusi elektrik keçiriciliyinin dəyişmə dinamikası suyun növündən, elektrik gərginliyindən və sudan keçən elektrik cərəyanının müddətindən asılıdır.

1-ci cədvəl

Suların kimyəvi tərkibi

Anion və kationlar	İonların miqdarı, mq/ekv/l			
	Dəniz suyu	Cod lay suyu	Qələvi lay suyu	İçməli su
$Na^+ + K^+$	154,0	171,90	24,17	5,4
Ca^{++}	16,0	16,54	0,50	2,1
Mq^{++}	56,0	15,28	1,30	1,4
Cl^-	166,0	202,33	15,19	6,7
SO_4^{--}	58,0	0,06	1,97	2,1
HCO_3^{--}	2,0	0,92	7,31	0,1
CO_3^{--}	–	–	0.56	–
$RCOO^-$	–	0,39	0,67	–
HB_4O_7	–	0,02	0,27	0,01
cəmi	452,0	407,44	51,94	17,8
293K-də sıxlıq, kq/m^3	1040	1025	1015	1004
1-ci duzluluq (S_1)	65,16	84,40	66,06	24,58
2-ci duzluluq (S_2)	33,04	14,94	–	–
1-ci qələvilik (A)	–	–	27,0	0
2-ci qələvilik (a)	1,80	0,66	6,94	0

2-ci cədvəl

Suların fiziki-kimyəvi xüsusiyyətlərinə sabit elektrik sahəsinin təsiri

U, volt	T, dəqiqə	İçməli su			Xəzər dənizi suyu			Qələvi lay suyu (QLD)			Cod lay suyu Y horizont		
		pH	σ, mN/m	$\rho \cdot 10^{-2}$ Ом$^{-1}$ •sm^{-1}	pH	σ, mN/m	$\rho \cdot 10^{-2}$ Ом$^{-1}$ •sm^{-1}	pH	σ, mN/m	$\rho \cdot 10^{-2}$ Ом$^{-1}$ •sм$^{-1}$	pH	σ, mN/m	$\rho \cdot 10^{-2}$ Ом$^{-1}$ •sм$^{-1}$
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14
20	0	8,30	24,5	–	8,5	35,6	–	8,4	17,9	–	8,4	17,9	–
	10	8,45	22,9	0,13	8,68	28,0	2,0	9,0	14,8	9,0	8,8	14,8	4,4
	20	8,50	22,9	0,13	8,7	28,0	2,0	9,4	14,2	9,0	9,4	14,2	4,4
	30	8,50	22,9	0,13	8,7	28,0	2,0	9,5	14,0	9,0	8,7	14,0	4,4
40	10	8,5	23,1	0,085	8.6	27,5	2,5	9,2	14,0	11,5	8,5	15,0	6,1
	20	8,6	22,9	0,085	8,55	27,5	2,5	9,7	12,2	11,5	8,4	16,9	6,1
	30	8,6	22,9	0,85	8,4	27,6	2,5	9,9	11,0	11,5	8,7	18,5	6,1
60	10	8,6	23,2	0,09	8,6	27,5	2,9	10,0	10,0	7,0	8,5	22,0	7,0
	20	8,6	22,5	0,09	8,4	27,5	2,9	10,5	9,8	7,0	8,9	20,0	7,1
	30	8,6	22,5	0,09	8,3	27,5	2,9	10,5	9,8	7,0	9,0	20,0	7,1
100	10	8,7	22,1	0,096	8,54	27,8	3,6	11,0	9,5	5,5	8,0	22,0	5,5
	20	8,8	22,0	0,096	8,32	31,0	3,6	11,5	9,1	5,5	7,2	24,0	5,5
	30	8,9	22,0	0,96	8,30	32,5	3,6	11,8	9,0	5,5	7,1	25,0	5,5

Belə ki, içməli sudan nəql edilən sabit elektrik cərəyanının 20-100 volt qiymətlərində gərginlikdən asılı olmayaraq, sudan keçən elektrik cərəyanı müddətinin artması ilə pH-ın qiyməti artır. Ancaq qeyd etmək lazımdır ki, bu kəmiyyətlərin mütləq qiyməti elektrik gərginliyinin miqdarından asılıdır. Gərginlik 20 volt olan şəraitdə hidrogen göstəricisi təcrübə vaxtının artması ilə 8,3-dən 8,5-ə qədər artır, səthi-gərilmə isə 24,5-dən 22,9 mN/m-ə qədər azalır. Göründüyü kimi, mayedən keçən sabit elektrik cərəyan şiddəti müddətinin 30 dəqiqəyə qədər atrması nəticəsində pH 0,2 ədəd artır, σ isə 1,6 mN/m azalır. 100 volt gərginlikdə vaxtın artması ilə pH –8,3-dən 8,9-a qədər yüksəlir, σ-isə 24,5-dən 22,0-a qədər azalır. Onu da qeyd etmək lazımdır ki, pH kəmiyyətinin 8,3-dən 8,9-a qədər artması üçün $12 \cdot 10^{-4}$ kVt • saat elektrik enerjisi sərf olunmuşdur.

Qeyd etmək lazımdır ki, Xəzər dənizi suyuna sabit elektrik cərəyanı sahəsi ilə təsir etdikdə elektrik gərginliyinin qiymətindən asılı olaraq pH və σ kəmiyyətlərinin vaxtdan asılılıq dinamikası müxtəlifdir. Belə ki, gərginlik 20 volt olan şəraitdə pH vaxtın artması ilə artır, σ isə azalır. Ancaq su nümunəsinə 100 volt sabit gərginlik verilən zaman məhlulun hidrogen göstəricisi kiçik bir zaman daxilində özünün maksimum qiymətinə çatır, sonra isə sürətlə aşağı düşür və sabitləşir (pH=8,3). Səthi-gərilmə isə əvvəlcə azalır və sonra artmağa başlayır. Bəsit dəniz suyundan sabit elektrik cərəyanı buraxılan zaman hidrogen göstəricisinin tez zaman ərzində artması və sonra isə azalması, bunun əksinə, səthi-gərilmənin isə azalıb, atrması hidroliz prosesinin ani anda getməsi ilə izah oluna bilər. Bu, sudan 100 volt gərginlikli cərəyan şiddəti keçərkən qısa zaman ərzində temperaturun 323-333 K qalxması, model dibinə kül rəngli çöküntünün çökməsi və sudan keçən cərəyan şiddətinin azalması müşahidə olunur. Bunlarla əlaqədar olaraq, dəniz suyu öz elektrolitik qabiliyyətini itirir. Onu da qeyd etmək lazımdır ki, prosesin gedişinə sərf olunan elektrik enerjisi $46{,}0 \cdot 10^{-4}$ kV•saat təşkil etmişdir.


Cədvəldə verilmiş məlumatlardan göründüyü kimi, qələvi lay suyundan 20 və 40 volt sabit elektrik cərəyanı buraxılan zaman vaxtdan asılı olaraq hidrogen göstəricisinin qiyməti 20 volt gərginlikdə 8,4-dən 9,5-ə qədər çoxaldığı halda, su daxilində 100 volt gərginlik olan şəraitdə bu artım 3,4 təşkil edir. Ağ neft sərhədində səthi-gərilmə uyğun olaraq 17,9 мН/м-dən 9 мН/м-ə qədər azalır. Qələvili lay suyunun hidrogen göstəricisini 8,4-dən 11,8-ə qədər artırmaq üçün $24 \cdot 10^{-4}$•kVt•saat elektrik enerjisi sərf olunmuşdur. Cod lay suyundan da sabit elektrik cərəyanı buraxılan zaman mayenin σ və pH kəmiyyətləri müəyyən miqdarda dəyişir.

Qeyd etmək lazımdır ki, sabit elektrik cərəyanı gərginliyinin artması ilə, suyun tipindən asılı olaraq, elektrik keçiriciliyi ya artır, ya da azalır.


İkinci silsilə tədqiqatlarda, Qırmaki lay dəstəsindən götürülmüş qumdan istifadə edilərək, uzunluğu 0,41 m orqanik şüşədən hazırlanmış və hər iki ucunda elektrod yerləşdirilmiş modeldə təcrübələr aparılmışdır.

Məsaməli mühitdən dəniz suyunun süzülməsi zamanı, müxtəlif dövrlərdə, su nümunəsi götürüb onun səthi-gərilməsi və hidrogen göstəricisi yoxlanıldıqdan sonra məsaməli mühitdən müəyyən gərginlikdə 1 saat müddətində sabit elektrik cərəyanı buraxılmışdır. Prosesin sonunda modeldən çıxan sudan nümunə götürülüb, yenidən onun pH və σ kəmiyyətləri yoxlanılmışdır. Beləliklə, elektrik gərginliyinin 25, 50, 75 və 100 volt qiymətlərində Qırmaki layı qumundan təşkil olunmuş məsaməli mühitdən keçən dəniz suyuna sabit elektrik cərəyanı ilə təsir olunan zaman suyun hidrogen göstəricisi və səthi gərilməsi öyrənilmişdir (1-ci şəkil). Bu asılılıq əyrilərindən görünür ki, dəniz suyu ilə doydurulmuş məsaməli mühitdən sabit elektrik cərəyanı buraxılan zaman pH və σ kəmiyyətləri əhəmiyyətli dərəcədə dəyişir. Elektrik gərginliyi sıxlığının artması ilə bu dəyişmənin qiymətləri daha çox intensivləşir. Belə ki, elektrik gərginliyi sıxlığının (V/L) 0,6-dan 2,4-ə qədər artması pH-kəmiyyətinin 8,5-dən 12,5-ə qədər artmasına, σ-nın 20,0 mN/m-dən 7,5 mN/m-ə qədər azalmasına səbəb olur. Qırmaki lay qumundan təşkil olunmuş məsaməli mühitdən sabit elektrik cərəyanının təsiri ilə dəniz suyu süzülərkən hidrogen göstəricisinin 12,5 qiymətə çatması üçün $78 \cdot 10^{-4}$ kVt saat elektrik enerjisi sərf olunmuşdur (2-ci şəkil).

Beləliklə, hər iki halda aparılan laboratoriya təcrübələrinin təhlili göstərir ki, sabit elektrik cərəyanının təsiri ilə pH və σ kəmiyyətlərinin dəyişməsi məsaməli mühit şəraitində daha yüksək müsbət göstəricilərlə nəticələnir.



1-ci şəkil. Qırmaki lay dəstəsi qumundan dəniz suyu süzülərkən hidrogen göstəricisinin (pH) və səthi-gərilmə (σ) əmsalı qiymətlərinin sabit cərəyan şiddəti gərginliyi sıxlığından (H) asılılığı



2-ci şəkil. Qırmaki lay dəstəsi qumundan dəniz suyu süzülərkən hidrogen göstəricisi kəmiyyətinin enerji sərfindən asılılığı

Hər iki halda aparılan laboratoriya tədqiqatlarının məlumatlarına əsasən, müəyyən edilmişdir ki, sulardan sabit elektrik cərəyanı buraxıldıqda onların hidrogen göstəriciləri, səthi-gərilmə əmsalının qiymətləri və elektrik keçirmə qabiliyyətləri dəyişir. Bu göstəricilərin dəyişməsini belə izah etmək olar: məlum olduğu kimi, duzların, qələvilərin və turşuların molekulları əks adlı və bərabər miqdarda yüklənmiş anion və kationlardan ibarətdir. İonlar arasındakı cazibə qüvvəsi molekulun bütövlüyünü təmin edir. Bu molekullar su molekulları ilə əhatə olunduqda onları təşkil edən ionlar arasındakı əlaqə çox zəifləyir. Digər tərəfdən, kənardan elektrik cərəyanı ilə təsir prosesində istilik enerjisinin yaranması ilə molekulların toqquşması nəticəsində onlar ionlara parçalanır. Məhlulda OH^{-1} ionlarının artması hidrogen göstəricisinin yüksəlməsinə səbəb olur ki, bununla da suyun səthi-gərilmə qüvvəsinin qiyməti azalır.

Beləliklə, aparılmış təcrübə işləri göstərir ki, suya elektrik cərəyanı ilə təsir etməklə onun fiziki-kimyəvi xassəsini dəyişdirmək mümkündür.

Məlumdur ki, neftli laylara su vurulması prosesində mənfi təsir göstərən amillərdən biri də məsaməli mühitin maye süzmə qabiliyyətinin azalmasıdır.


Bunu nəzərə alaraq, laboratoriya şəraitində Qırmaki lay dəstəsi (QLD) qumundan təşkil olunmuş məsaməli mühitdən maye süzülərkən onun keçiriciliyinin azalması prosesinə və bunun qarşısını almaq üçün xaricdən yaradılan elektrik sahəsinin təsiri öyrənilmişdir.

Təcrübə işləri laboratolriyada yığılmış xüsusi qurğuda aparılmışdır. Qurğu lay modelindən, elektrik mənbəyindən, sıxışdırıcı maye üçün qabdan, yüksək təzyiqli hava balonundan, maye ölçü qabından və manometrdən ibarətdir. Lay modelinin elektrik keçirməyən orqanik şüşədən hazırlanmış giriş və çıxış hissəsində iki dairəvi elektrod yerləşdirilmişdir ki, onun da vasitəsilə su ilə doydurulmuş məsaməli mühitə elektrik cərəyanı verilmişdir. Tədqiqatda içməli və qələvi tipli lay suyundan istifadə edilmişdir.

Təcrübələrdən alınan məlumatlar məsaməli mühitin keçiriciliyinin mayenin süzülmə vaxtından asılılığı kimi təhlil edilmişdir (3-cü şəkil).

Alınmış asılılıqlardan (3-cü şəkil) göründüyü kimi, məsaməli mühitdən 1,5 saat QLD-nin suyu süzülən zaman keçiricilikdə heç bir dəyişiklik müşahidə edilməmişdir, ancaq lay suyu içməli su ilə sıxışdırıldıqda isə qısa bir müddət ərzində məsaməli mühitin keçiriciliyi əsaslı surətdə azalmağa başlamışdır.

Tədqiqatlarda istifadə edilmiş Qırmaki lay dəstəsi süxuru daxilində montmorillonit (1,5), hidrosluid (13,0), kaolonid (1,0) və xlorid (4,5) tip gil nümunələri vardır. Süxur daxilindəki yüksək xüsusi səthə malik bu nümunələr şişmə, başqa sözlə, öz həcmini su mühitində artırmağa, xırdalanmağa, su saxlamağa, müxtəlif valentli metal kationlarını udma qabiliyyətlidirlər. Eyni qranulometrik ölçülü Qırmaki lay süxuru nümunəsinin, vahid həcmdə, ümumi səth sahəsi kvars qumuna nisbətən təxminən 1,4-1,5 dəfə çoxdur.



3-cü şəkil. Təzyiq düşgüsünün 0,04 MPa qiymətində lay modelinə elektrik cərəyanı sahəsi ilə təsirdə məsaməli mühit keçiriciliyinin zamandan asılı olaraq dəyişmə dinamikası 0-1-QLD suyunun cərəyansız süzülməsi; 1-2; 6-7 – Kür çayı suyunun cərəyansız süzülməsi; 2-3 – Kür çayı suyunun 100 V sabit cərəyan və müvafiq olaraq 100, 150,200 V (3-4; 4-5; 5-6) dəyişən cərəyan sahəsinin təsiri ilə süzülməsi

İçməli suyun süzülməsi prosesində lay modelində olan Qırmaki lay suyunun hidrokimyəvi tərkibinin dəyişməsi gilli mineralların kristal quruluşunun transformasiyasına da səbəb olur.

İçməli suda zəif elektrolitli qatılıqlıq şəraitində protonlar (müsbət yüklü hissəciklər) daha intensiv gil hissəciklərinin arasına daxil olaraq onun həcmini artırır, belə ki, bu şəraitdə onlar qeyri-üzvü metal kationlarına nisbətən daha çox fəaldırlar (Хавкин и др.,2003). Mənfi ionların artıqlığında protonlar hidrogenlə əlaqəyə girərək bir neçə su molekulu ilə kompleks yaradır ki, bu da məsaməli mühitdə gil hissəciklərinin şişməsinə səbəb olur. Qeyd etmək lazımdır ki, gil nümunəsi ilə əlaqədə olan içməli suyun hidrogen göstəricisinin qiyməti də artır. Şişmiş gilin həcmini, praktik olaraq, ilk vəziyyətinə o vaxt gətirmək mümkün olar ki, suda kationların miqdarı artsın. Kationlar yalnız yüksək elektrolitlikdə gil hissəciklərinin arasına daxil olaraq su molekullarını xaric etmək qabiliyyətinə malikdirlər və bunun nəticəsində gil dənəcikləri arasındakı məsafə azalır və onun şişmə prosesi zəifləyir. Qeyd etmək lazımdır ki, bu kationların ölçüsü məsaməli mühitə hopmuş su molekullarının ölçüsündən əhəmiyyətli dərəcədə kiçikdir.

Aparılmış çoxsaylı tədqiqat işləri ilə müəyyən edilmişdir ki, gil nümunələrinin şişməsi və yaxud xırdalanması onların təkcə, ion dəyişmə həcmindən deyil, eyni zamanda, səth enerji yükünün sıxlığından da asılıdır. Belə ki, eyni həcm miqdarında müxtəlif gil nümunələrinin şişmə qabiliyyətini tənzimləmək üçün müxtəlif miqdarda reagent tələb olunur. Gil nümunələrini birbirindən fərqləndirmək üçün fəal gillilik əmsalı təklif olunmuşdur. Bu əmsal gil nümunəsinin fiziki-kimyəvi fəallığının təmiz kalsium mənşəli montmorillonit tipli gil nümunəsi fəallığına (fəallıq vahid götürülür) nisbəti kimi qəbul edilir (Хавкин ,1994).

Natrium və kalium əsaslı montmorillonit və kaolinit tipli gillər üçün bu əmsal, müvafiq olaraq, 0,416-0,425 və 0,069-0,057 təşkil edir. Bentonit gilləri üçün isə əmsal qiymətləri 0,790-0,500 arasında dəyişir. Verilmiş fəallıq əmsallarının müqayisəsi göstərir ki, bu kəmiyyətə görə müxtəlif gil nümunələri bir-birindən kəskin surətdə fərqlənirlər. Bu isə onların su və reagent məhlulları ilə fiziki-kimyəvi əlaqəyə girmə göstəricilərinin müxtəlif olmasını göstərir.

Aparılmış laboratoriya tədqiqatları ilə müəyyən edilmişdir ki, təzyiq düşgüsünün 0,04 MPa qiymətində lay suyu içməli su ilə sıxışdırıldıqda məsaməli mühitin keçiriciliyi 0,32 mkm^2 0,075 mkm^2 qədər, yəni 4,4 dəfədən çox azalır. Buna səbəb, yuxarıda göstərilən amillərlə yanaşı, süxur tərkibindəki gil dənəciklərinin məsaməli mühitdən süzülən su daxilində hərəkətedici suspenziya yaratma qabiliyyətidir. Süzülmə prosesində suspenziya daxilində olan hissəciklər məsaməli mühitin su süzmə qabiliyyətini ləngidir. Onu da qeyd etmək lazımdır ki, məsaməli mühit keçiriciliyinin azalması istifadə olunan suların mineralizasiya tərkibindən də asılıdır. Məsaməli mühitdə olan sıxışdırıcı suyun mineralizasiya nisbətinin artması ilə keçiriciliyin qiyməti də azalır.

Məsaməli mühit keçiriciliyinin azalması təzyiq düşgüsünün 0,1, 0,15 və 0,2MPa qiymətlərində də müşahidə edilir. Qeyd etmək lazımdır ki, gilli layların başlanğıc təzyiq qradiyenti nə qədər çox olarsa, onların şişmə dərəcəsi bir o qədər də yüksək olur.

Hidrodinamiki təzyiq düşgüsünün yüksək qiymətlərində süzülmə sürətinin artmasına baxmayaraq, lay modelinin ilk keçiriciliyi bərpa olunmur. Buna səbəb məsaməli mühitdə Qırmaki lay suyu ilə süzülən içməli suyun daxilində olan

Ca^{2+}, Na^{+}, Mg^{2+}, Cl^{-}, SO_4^{2-}, HCO_3^{-} ionlar qatılığının dəyişməsi, qeyri-üzvi duz çöküntülərinin əmələ gəlməsi, süzülən kiçik mineralizasiyalı suyun təsiri ilə gil hissəciklərinin hidrotasiyaya uğraması, maye-süxur sərhədində ikiqat elektrik təbəqəsinin yaranmasıdır. Qırmaki lay dəstəsi süxurundan düzəldilmiş çoxgilli məsaməli mühitdə gil dənəcikləri arasındakı məsafə onların tipindən asılıdır. Belə ki, kaolinit gil dənəcikləri arasındakı məsafə minimal olduğu üçün onun həcmi az miqdarda şişir.


Gil növü tərkibinin keçiriciliyə təsiri, fəallıq əmsalı (τ) nəzərə alınmaqla, aşağıdakı asılılıqla təyin oluna bilər (Хавкин, 1994):

$$K=K_0 (C/C_0)^{A\cdot\tau+B}$$

Burada A və B hər bir gil növü üçün sabit əmsal, K və C keçiriciliyin (mkm^2) cari və su daxilində ionların cəm qatılığıdır (q. ekv/l). K_0 və C_0 isə çay suyu daxilində ilk keçiricilik və ionlar qatılığının cəmidir.

Göstərilən mənfi amillərin qarşısını almaq, lay keçiriciliyinin bərpa edilməsini və yaxud yüksəldilməsini təmin etmək məqsədi ilə sabit və dəyişən elektrik cərəyan sahələrindən istifadə edilmişdir. Cərəyan mənbəyindən istifadə edilərək məsaməli mühitdən aşağıdakı ardıcıllıqla elektrik cərəyanı buraxılmışdır. İçməli sudan sonra 100 volt gərginlikdə sabit elektrik cərəyanı, bunun ardınca 100, 150 və 200 volt gərginlikdə dəyişən elektrik cərəyanı buraxılmış və sonra süzülmə adi qaydada davam etdirilmişdir. Onu da qeyd etmək lazımdır ki, texniki imkan olmadığından müxtəlif gərginlikli sabit elektrik cərəyanından istifadə edilməmişdir. Alınan nəticələrin təhlili göstərir ki, içməli sudan sonra məsaməli mühitdən gərginliyi 100 volt olan sabit elektrik cərəyanı buraxıldıqda, təzyiqdən asılı olmayaraq, keçiriciliyin az miqdarda artması müşahidə olunur. Sabit elektrik cərəyanından sonra lay modelindən müxtəlif gərginlikli dəyişən cərəyan buraxıldıqda məsaməli mühitin keçiriciliyi əsaslı surətdə artır. Onu da bildirək ki, bu artım gərginliyin qiymətindən asılıdır, yəni yüksək gərginlik keçiriciliyin yüksəlməsinə müsbət təsir göstərir. Modeldən dəyişən elektrik cərəyanının buraxılma prosesi kəsildikdən sonra, təzyiqdən asılı olaraq, keçiricilik müəyyən qədər azalır və sonra sabitləşir. Ancaq təzyiqin 0,1, 0,15 və 0,2 MPa qiymətlərində keçiriciliyin azalması müşahidə olunmur. Onu da deyək ki, məsaməli mühitdən dəyişən elektrik cərəyanı buraxan zaman keçiriciliyin mütləq artımı hidrodinamiki təzyiq düşgüsündən asılıdır. Belə ki, eyni şəraitdə təzyiq düşgüsünün 0,04 MPa qiymətində dəyişən cərəyan gərginliyinin 100 voltdan 200 volta qədər artması nəticəsində keçiricilik 0,046 mkm^2-dan 0,159 mkm^2-a, yəni 0,113 mkm^2 artırsa, təzyiqin 0,2 MPa qiymətində bu artım 0,028 mkm^2 təşkil edir.

Təcrübə zamanı məsaməli mühitin müqavimətinin dəyişmə dinamikası araşdırılmışdır. Bunun üçün müxtəlif zaman ərzində süzülən mayenin miqdarı ölçülməklə yanaşı, mühitin müqaviməti də ölçülmüşdür. Alınan tədqiqat məlumatları müqavimətin süzülmə vaxtından asılılığı şəklində təhlil edilmişdir (4-cü şəkil). Asılılıq əyrisindən göründüyü kimi, mühitin müqaviməti sıxışdırma dövründə artıb-azalmaqla sabitləşir. Qeyd etmək lazımdır ki, modeldən elektrik cərəyanı buraxan zaman keçiriciliyin dəyişmə dinamikası mühitin müqavimətindən asılıdır. Bu, 3-cü və 4-cü şəkillərdə verilmiş əyrilərin müqayisəsindən aydın görünür. Belə ki, müqavimətin artması keçiriciliyin azalmasına səbəb olur.



4-cü şəkil. Təzyiq düşgüsünün 0,04 MPa qiymətində lay modelinə elektrik cərəyanı sahəsi ilə təsirdə məsaməli mühit müqavimətinin zamandan asılı olaraq dəyişmə dinamikası. Göstəricilər 3-cü şəkildəki ilə eynidir.

Beləliklə, laboratoriya şəraitində aparılmış çoxşaxəli tədqiqatlarla müəyyən edilmişdir ki, müxtəlif tip sulara elektrik cərəyanı ilə təsir etməklə onların lay şəraitində fiziki-kimyəvi xassəsini və süzülmə sürətlərini dəyişdirmək mumkündür.

Sabit və dəyişən elektrik cərəyanı sahələrinin tətbiqi ilə aparılan tədqiqat işlərinin təhlilindən əldə edilmiş aşağıdakı nəticələri göstərmək olar:

– sabit elektrik cərəyanı sahəsinin neft-çıxarmanın müxtəlif texnoloji proseslərində istifadə olunan su tiplərinin hidrogen göstəricisi, səthigərilmə və elektrik keçiriciliyi amillərinin dəyişmə dinamikasına təsiri təcrübi yolla öyrənilmiş-

dir. Müəyyən edilmişdir ki, sabit elektrik cərəyanı gərginliyinin artması qeyri-üzvi ikivalentli metal duzlarla zəngin olan su tiplərinin səthigərilmə əmsalı qiymətlərinin azalması və hidrogen göstəricilərinin yüksəlməsi səmərəliliyinə təsiri azalır;

– sabit elektrik cərəyanı suların fiziki-kimyəvi xüsusiyyətlərinə gilli və karbonatlı məsaməli mühit şəraitində daha əhəmiyyətli təsir göstərir;

– müəyyən edilmişdir ki, müxtəlif tərkibli suların çoxgilli məsaməli mühitdən birgə süzülməsi zamanı keçiriciliyin azalmasının qarşısını almaq və ya onu bərpa etmək üçün dəyişən elektrik cərəyanı sahəsi ilə təsir səmərəlidir.

ƏDƏBIYYAT

АБАСОВ, М.Т., МУСАЕВ, Р.А., АСАДОВ, А.И., АЛЛАХВЕРДИЕВА, Р.Г. 2010. Экспериментальное исследование влияния состава пористой среды на некоторые электрофизические параметры пласта. *Известия НАН Азербайджана. Науки о Земле*, 1, 71-76.

АБАСОВ, М.Т., МУСАЕВ, Р.А., АСАДОВ, А.И., АЛЛАХВЕРДИЕВА, Р.Г. 2008. Исследование влияния электрического поля на адсорбцию и десорбцию водорастворимых поверхностно-активных веществ. *Известия НАН Азербайджана. Науки о Земле*, 2, 97-103.

АБРУКИН, А.Л. 1994. Влияние электрофизических процессов в нефтяных пластах на коэффициенты продуктивности скважин. *Нефтяное хозяйство*, 6, 41-45.

ГЛАЗУНОВА, А.В., СИМКИН, Э.М. 1982. Изменения потенциалов протекания воды в переменном магнитном поле. *Труды ВНИИ*, 80, 132-135.

ГЛАЗУНОВА, А.В. 1994. Воздействие постоянных и переменных электрических полей на пласт и его призабойную зону. *Труды ВНИИ*, 118, 47-55.

КАЗАКОВ, А.А. 1983. Роль электрокинетических явлений в процессе извлечения нефти из пласта. *Нефтяное хозяйство*, 5, 33-35.

КЕДРОВСКИЙ, О.Л., ЛЫКИН, М.С., МУСИНОВ, В.И., СИМКИН, Э.М. 1986. Исследование влияния электрического поля на фильтрацию нефти в низкопроницаемых пластах. *Нефтяное хозяйство*, 12, 45-48.

МИРЗАДЖАНЗАДЕ, А.Х., СИМКИН, Э.М., ГЛАЗУНОВА, А.В. 1982. Экспериментальное исследование потенциалов фильтрации в модельных углеводородных жидкостях. *Известия ВУЗ. Серия нефть и газ*, 10, 53-56.

РОСТОВСКИЙ, Н.С., СЕЛЯКОВ, В.И. 1989. Изменение дебита скважины при пропускании через нее электрического тока. *Журнал физико-технических проблем разработки полезных ископаемых*, 5, 114-118.

РУМЯНЦЕВА, Н.Н. 1965.Экспериментальные исследования потенциалов фильтрации. *Труды ВНИИ*, 48, 194-204.

СИМКИН, Э.М. 1979. Роль электрокинетических явлений в процессах филтрации. *Нефтяное хозяйство*, 3, 53-56.

ТАБАКОВ, В.П., МАЛКИНА, И.И., БАСНИЕВА, И.К., НАЗАРОВ, В.И. 1986. Лабораторные исследования процесса электролиза вод для повышения нефтеотдачи пластов. *Труды ВНИИ*, 96, 64-68.

ХАВКИН, А.Я., СОРОКИН, А.В., ТАБАКОВА, Л.С. 2003. Особенности регулирования свойств глинистых минералов. *В трудах 12-го Европейского симпозиума Повышение нефтеотдачи пластов*. Казань. 552-557.

ХАВКИН, А.Я. 1994. Физико-химические технологии повышения нефтеотдачи низкопроницаемых пластов. *Нефтяное хозяйство*, 8, 31-34.

MİRZƏCANZADƏ, A.X., MƏMMƏDZADƏ, A.M. 2001. Neftçıxarma proseslərinə fiziki sahələrin təsirinin öyrənilməsi. *Azərbaycan neft təsərrüfatı*, 4-5, 15-18.

LINRONG, H., IINGSHUN L. 1994. Экспериментальные исследования воздействия электрическими импульсами на породы нефтеносных коллекторов. *Petrol China. Ed.Nat. set*, 4, 135-137.

Məqaləyə f.-r.e.d., prof. Q.Həsənov rəy vermişdir

© Н.М.Сафаров, Г.Г.Исмайылов, А.М.Гасымлы, 2012

О ВОЗМОЖНОСТИ ВНУТРИПЛАСТОВОГО ОБРАЗОВАНИЯ АНОМАЛЬНЫХ ВОДОНЕФТЯНЫХ ЭМУЛЬСИЙ И ИХ ПРИМЕНЕНИЕ ДЛЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ПРОЦЕССА РАЗРАБОТКИ

Н.М.Сафаров, Г.Г.Исмайылов, А.М.Гасымлы

НИПИ «Нефтегаз», ГНКАР
AZ1012, Баку, ул.Зардаби, 88а

В данной статье на основе экспериментов изучена вероятность образования аномальных водонефтяных эмульсий в пластовых условиях и их применения для повышения эффективности процесса разработки. Выявлено, что закачка в пласт водонефтяной эмульсии приводит к увеличению значения коэффициента нефтевытеснения и подтверждает эффективность примененной технологии. На основе применения теории функций комплексных переменных построены карты эквипотенциальных линий при фильтрации флюидов, косвенно характеризующие процесс образования застойных зон и водонефтяных эмульсий в пласте.

Актуальность задачи. Одной из важных проблем нефтяной промышленности является повышение уровня нефтеизвлечения в разрабатываемых месторождениях. Особую актуальность она приобретает при разработке залежей с высоковязкими нефтями, запасы которых соизмеримы с запасами ньютоновских нефтей. Несмотря на большое количество проведенных теоретических и экспериментальных исследований, проблемы разработки месторождений с такими нефтями решены недостаточно, и продолжение исследований в этом направлении остается насущной задачей. В этой связи исследования, в том числе и экспериментальные, относящиеся к изучению влияния различных факторов на нефтеотдачу при вытеснении высоковязкой нефти водой, по сей день являются актуальными.

Введение. Известно, что особо важной тенденцией нефтяной отрасли Азербайджана является вступление большого числа месторождений в позднюю и завершающую стадию разработки, характеризующуюся значительным снижением добычи нефти при резком росте обводненности скважинной продукции. Но, к сожалению, до сих пор сложилось такое стереотипное мышление, что водонефтяные системы не могут быть образованы в самом пласте. На основе анализа проведенных экспериментов и, ссылаясь на предпосылки других исследователей, авторами предположено, что при совместном движении воды и нефти по микроканалам пористой среды в результате диспергирования одной жидкости (воды) в другой (нефти) может происходить процесс образования указанных систем в самом пласте. Вода, постепенно обводняя нефтяные залежи и саму скважинную продукцию, может стать причиной образования в пласте аномальных эмульсий, вплоть до образования целиков нефти, застойных и слабодренированных зон, приводящих к ухудшению условий разработки (Мирзаджанзаде и др., 1972; Сулейманов, 2006).

По результатам многочисленных исследований было выявлено, что одной из причин снижения эффективности разработки нефтяных месторождений заводнением является различие в величинах вязкости нефти и воды, способствующее неравномерному продвижению водонефтяного контакта. Явление вязкостной неустойчивости, заключающейся в проникновении «языков» воды в нефтяной пласт с самого начала разработки залежи, резко снижает коэффициент охвата пласта как по мощности, так и по простиранию. При повышенных соотношениях вязкости нефти и воды (более 10-15 раз) это явление происходит при всех скоростях вытеснения, реализуемых на месторождениях (Михайлов, 1992).

Наличие аномально вязких свойств у нефтей ухудшает условия эксплуатации залежи: усиливается проницаемая неоднородность коллектора, ослабляется интерференция скважин, ускоряется прорыв вытесняющей воды по высокопроницаемым зонам в добы-

вающие скважины, ухудшается капиллярный и гравитационный обмен флюидами между низко- и высокопроницаемыми прослоями и зонами пласта. В итоге, охват пласта вытеснением и конечный коэффициент вытеснения нефти из заводненного объема пласта оказываются низкими (Сулейманов и др., 1996).

Теоретическими исследованиями и промысловыми опытами многих исследователей установлено, что при разработке залежей, подстилаемых подошвенной водой, достигается относительно низкий коэффициент нефтеотдачи. При этом разработка их сопровождается большим отбором попутно добываемой воды из-за образования конусов подошвенной воды (Владимиров и др., 2004; Сургучев и др., 1991).

Исследования показали, что в результате смешивания воды с находящейся в пласте нефтью возможно образование стойких водонефтяных эмульсий, которые обладают повышенными реологическими свойствами, затрудняющими их дальнейшее извлечение из пласта ввиду аномально большой вязкости и малоподвижности (Рассохин, 2008).

Образование водонефтяных систем (т.е. эмульсий) ставит определенные актуальные задачи, подлежащие скорому решению в области добычи, транспортировки и обработки в промысловых условиях. Обводненность нефти вызывает серьезные осложнения (более интенсивное осадкообразование, повышение температуры застывания нефти, увеличение ее вязкости и и т.д.) при добыче, сборе и подготовке нефти, а добываемые нефти по своим физико-химических свойствам, как правило, относятся к реологически сложным жидкостям, обладающим аномальными свойствами, что вызывает дополнительные затруднения при разработке нефтяных месторождений (Аметов и др., 1985; Касумов, 2000).

Исходя из вышеуказанного, следует, что для повышения эффективности разработки месторождений с трудноизвлекаемыми запасами нефти нуждаются в применении принципиально новых технологий разработки, учитывающих особенности извлечения запасов этих категорий. Структура существующих запасов нефти, текущее состояние разработки и доразработки месторождений требуют изучения и применения новых инновационных технологий воздействия на пласты, обеспечивающих дополнительное увеличение нефтеотдачи и возможность эффективного освоения трудноизвлекаемых запасов нефти.

Эффективность водонефтяных систем в различных процессах нефтедобычи в первую очередь связана с их способностью сохранять, восстанавливать и даже улучшать естественные коллекторские свойства, а также с широким диапазоном регулирования, что приводит к реотехнологии, которая представляет собой совокупность методов и способов организации технологических процессов добычи нефти и газа на основе использования и применения реофизических особенностей неньютоновских систем.

Постановка задачи. Проведение экспериментальных исследований по изучению возможности внутрипластового образования аномальных водонефтяных эмульсий и их применение для повышения коэффициента нефтеотдачи на основе реотехнологических особенностей водонефтяных систем.

Методика испытания. С целью проведения экспериментальных исследований в лабораторных условиях была собрана установка, схема которой приведена на рис.1. Установка состояла из следующих основных узлов: емкости для жидкости 1, компрессора 2, редуктора 3, микроредуктора 4, модели пласта 5, манометров 6, регулировочного вентиля для подачи вытесняющего агента 7, вентилей для отбора добываемой продукции 8, мерных емкостей 9 и соединительных узлов 10. С целью визуального наблюдения за процессом вытеснения нефти из пласта при площадном заводнении была изготовлена модель элемента пласта с пятиточечной системой расположения скважин из органического стекла, в центре которой расположена нагнетательная скважина, а вокруг нее – по углам четыре, имитирующие добывающие скважины.

Geokimyəvi formulalardan göründüyü kimi, tədqiq etdiyimiz ərazinin müxtəlif landşaft tiplərində klarkdan yüksək-izafi miqdarda olan mikroelementlər bor (B), qurğuşun (Pb), vanadium (V) və molibden (Mo), defisit olan – çatışmayan mikroelementlər isə kobalt (Co), nikel (Ni), ftor (F) və yoddur (J).

Ümumiyətlə, Böyük Qafqazın şimal-şərq yamacının müxtəlif landşaft tiplərində ftor, yod və kobalt kimi mikroelemetlərin çatışmaması, qurğuşun, molibden və vanadiumun klark səviyyəsindən yüksək olması burada ekoloji geokimyəvi şəraitin yaxşılaşdırılması üçün müəyyən meliorativ təbbirlər görülməsinin zəruri olduğunu sübut edir, çünki landşaftda ftor çatışmazlığı diş kariyesi, yod çatışmazlığı zob, kobalt çatışmazlığı B_{12} avitaminozası xəstəliklərinin əmələ gəlməsinə gətirib çıxarır. Digər tərəfdən, mühitdə borun artıqlığı insanlarda, eləcə də xırdabuynuzlu mal-qarada və başqa ev heyvanlarında endemik bor enteritinə səbəb olur. Bununla yanaşı, landşaftda qurğuşunun çox olduğu ərazilərdə yaşayan insanlar arasında endemik sinir sistemi xəstəlikləri əmələ gəlir ki, həmin xəstəliklər müalicə olunmadıqda onkoloji xəstəliklərin və yeni törəmələrin yaranmasına səbəb olur.

ƏDƏBİYYAT

BUDAQOV, B.Ə., ƏHMƏDOV, A.H., RÜSTƏMOV, Q.İ., QƏHRƏMANOV, A.İ. 2000. Azərbaycanın geokimyəvi landşaft xəritəsi. Bakı.

BUDAQOV, B.Ə., ƏHMƏDOV, A.H., RÜSTƏMOV, Q.İ. 2009. Azərbaycan landşaftlarının tibbi-ekogeokimyəvi diferensasiya xüsusiyyətləri və onların xəritələşdirilməsi. *AMEA-nın Xəbərləri. Yer elmləri,* 3.

BUDAQOV, B.Ə., ƏHMƏDOV, A.H., RÜSTƏMOV, Q.İ. 2010. Tibbi-ekogeokimyəvi landşaft xəritəsi. Azərbaycan Respublikasının ekoloji atlası. Bakı Kartoqrafiya Fabriki. Bakı.

QULİYEV, Ş.M. 1967. Yod və onun xalq təsərrüfatında əhəmiyyəti. Gənclik. Bakı.

БУДАГОВ, Б.А. 1998. Современные естественные ландшафты Азербайджанской ССР. Элм. Баку.

БУДАГОВ, Б.А. 1973. Ландшафтная карта Азербайджанской ССР. *Изв. АН Азерб. ССР. Науки о Земле,* 6, Баку.

КУЧИНСКАЯ, И.Я. 2003. Особенности дифференциации современных ландшафтов северного склона Юго-Восточного Кавказа (на основе индикационно-ландшафтного дешифрирования КС). Автореф. канд. дис. Баку.

КУЧИНСКАЯ, И. Я. 2011. Ландшафтно-экологическая дифференциация горных геосистем. Баку.

МУСЕИБОВ, М.А. 2003. Ландшафты Азербайджанской Республики. Изд. Бак. Гос. Университета. Баку.

ПЕРЕЛЬМАН, А.И., КАСИМОВ, Н.С. 2000. Геохимия ландшафта. Астрея. Москва.

Məqaləyə c.e.n., dos. Ya.Ə.Qəribov rəy vermişdir

© C.Q. Şəms Azğan, 2012

QARADAĞ SİLSİLƏSİ VƏ ƏTRAF ƏRAZİLƏRİN SÜRÜŞMƏ TƏHLÜKƏLİLİYİ

C.Q. Şəms Azğan

Azərbaycan MEA H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prosp., 31

Məqalə İranın Qaradağ silsiləsi və ətraf ərazilərdə sürüşmələrin yaranma mexanizmlərinin, onların ərazi boyunca paylanmaları və inkişaf xüsusiyyətlərinin təhlilinə həsr olunmuşdur. Regionun iri sürüşmələri ətraflı öyrənilmiş və ərazilərin sürüşmə təhlükəliliyinə görə qiymətləndirilməsi aparılmışdır.

Giriş

Sürüşmələr geomorfoloji fəlakətlərin ən təhlükəli növlərindən biridir. Tarixdən məlumdur ki, 1911-ci ildə Pamir dağlarında baş verən zəlzələ böyük bir sürüşməyə səbəb oldu. Nəticədə 2,5 milyard kubmetr torpaq sahəsi sürüşdü. Usoy qışlağı əhalisi ilə birlikdə torpaq kütləsinin altında qaldı. Sürüşmə kütlələrinin Murqab çayının qarşısını kəsməsi nəticəsində yaxınlıqda olan Sarez qışlağı yeni yaranmış gölün dərinliyində qaldı. Bu cür böyük təbii fəlakətlər tez-tez baş verməsə də, çox ağır nəticələrə səbəb olur (Aleotti, Ghowdhury, 1999; Anbalagan, 1992; Yesilnacar, Topal, 2005).

Sürüşmələr – dağ süxurları, torpaq kütlələrinin dağ yamacları, yarğanlar, çay, göl, dənizlərin sıldırım sahilləri boyu öz ağırlığının təsiri altında sürüşərək yerini aşağıya doğru dəyişməsidir. Sürüşmə kütləri müxtəlif süxurlardan təşkil olunub ki, onların arasında tarazlığın pozulması davamlılığın zəifləməsinə səbəb olur. Sürüşmələrin yaranmasına təbii və süni (antropogen) amillər səbəb ola bilər. Təbii amillərə yamaclarda dikliyin artması, onların torpaqda olan əsasının su kütləri ilə yuyulmasını, seysmik təkanları və s., süni və ya antropogen amillərə isə yol çəkilməsi zamanı yamacların dağıdılması, meşələrin qırılması və s. aid etmək olar. Beynəlxalq statistik məlumatlara görə, sürüşmələrin yaranması və fəallaşmasına 80% antropogen təsirlər səbəb olur. Sürüşmələr adətən meyilliyi 10° və daha çox bucaq altında olan yamaclarda baş verir. Gilli süxurlara malik yamaclarda isə həddindən çox nəmişlik hətta 5-7° meyillik sıldırım olduqda belə sürüşmələrə gətirib çıxara bilər.

Sürüşmələr hadisənin miqyasına, başvermə yerinə, sürüşmə prosesinin gücünə, mexanizminə və aktivliyinə görə təsnif edilir.

Sürüşmənin miqyası prosesə cəlb olunan sahə ilə xarakterizə olunur. Miqyasına görə sürüşmələr bu cür təsnif edilir (Varnes, 1984):

- Nəhəng – 400 ha və daha çox;
- Çox böyük – 200-400 ha;
- Böyük – 100-200 ha;
- Orta – 50-100 ha;
- Kiçik – 5-50 ha;
- Çox kiçik – 5 ha sahəni əhatə edir.

Sürüşmə ani bir proses olub oroqrafiya, iqlim, geoloji quruluş, tektonika və s. amillərlə bağlıdır. İri sürüşmələr, adətən, təbii amillərin təsirindən baş verir və yamac boyunca yüz metrlərlə sahəni əhatə edir. Sürüşmənin cismi çox zaman öz monolitliyini qoruyub saxlayır. Orta və kiçikhəcmli sürüşmələr isə daha kiçik ölçülərdə olur və çox zaman antropogen amillərin təsirindən yaranır.

Gücünə görə sürüşmələr kiçik, orta, böyük və çox böyük ola bilir və yerini dəyişən süxur kütlələlərinin həcmi ilə xarakterizə olunur. Bu kütlələrin həcmi 100 kubmetrdən bir milyon kubmetrədək dəyişə bilər.

Sürüşmələr, sellər və uçqunlar təsərrüfatlara, tikililərə, təbii mühitə böyük ölçüdə zərər verməklə itkilərə səbəb olur və insan həyatı üçün təhlükə törədir. Onların əsas zədələyici faktorları hərəkət edən və yerini dəyişən dağ süxurlarıdır. Onların təsiri nəticəsində binalar, tikililər dağılır, kənd təsərrüfatı obyektləri, meşə massivləri süxur layları ilə örtülür, çay yataqlarının və təbii landşaftın dəyişməsinə, insanların həlak olmasına səbəb olur. Bu təhlükəli geoloji hadisələr bir çox hallarda dağlıq ərazilərdə yerüstü nəqliyyat üçün təhlükə yaradır, körpülərin dayaqlarını, relsləri, avtomobil yollarını zədələyib dağıdır, elektrik və rabitə xətlərini, neft kəmərlərini, hidroelektrik stansiyalarını, yaşayış məntəqələrini sıradan çıxarır.

Tədqiqatın əsas məzmunu

Sürüşmələrə və onlara səbəb olan amillərə dair İranda bir çox tədqiqat işləri aparılmışdır. Onlardan Ənsari və Bulurçianın "Xalxal sürüşmələrinin ümumi xüsusiyyətləri" (1995), Nikəndiş və Mirsaneyinin "Ərdəbil vilayətindəki sürüşmələrə bir baxış" (1995) adlı tədqiqatlarını qeyd etmək olar. Bunlardan əlavə, Haşimi Təbatəbayi, Həştçin regionunun sürüşmələrinə təsir edən amilləri öyrənərək Mora və Varson modeli əsasında ərazinin təhlükəlilik dərəcəsini qiymətləndirmişdir (1998). Uromeihy və Mahdavifar (2000) Xürüşrüstəm zonasındakı (Həştçin məntəqəsi) sürüşmələrin səbəblərini araşdıraraq faiz metodu əsasında 1:250000 miqyaslı təhlükəlilik dərəcələrini göstərən xəritə hazırlamışlar. R.B.Təlayi (2011) öz tədqiqatında Həştçin regionunu sürüşməyə həssaslıq baxımından sahələrə ayırmaq üçün geomorfoloji məlumatlara əsaslanaraq statistik göstəricilərə görə zonalaşdırma aparmışdır. Asadian və b. (2010) öz tədqiqatlarında Gilan əyalətində ətraf mühitin dəyişməsində sürüşmələrin rolunu təhlil etmişlər.

Dağlıq Qaradağ regionu 38,24°-39,27° şimal en dairəsi, 45,30°-47,30° şərq uzunluq dairəsində yerləşərək qərbdən şərqə uzanmışdır. Şimal sərhədi Araz çayı, qərb sərhədi Culfa-Mərənd avtomobil yolu, cənub sərhədi Əhər çayı boyunca, şərq sərhədi isə Qarasu çayı boyunca keçir. Qaradağ regionu Araz çayının hövzəsində yerləşir və onun hidroqrafik şəbəkəsinə aiddir. Əhər çayı tektonik çökəklikdə yerləşərək qərbdən şərqə uzanır və tektonik qırılma vasitəsilə Qarasu çayına keçir.

Şərqdən qərbə doğru Qaradağın hündürlüyü artır və dağlar şimala doğru Kiçik Qafqaza qoşulur. Cənub yamacların çaylarının ¾-ü Hacılar və Əhər çayı vasitəsilə Araza, ¼-i isə Hərzənd çayı vasitəsilə Urmiyə gölünə tökülür. Ümumiyyətlə, Qaradağ regionu dağlıq olub, düzənliklər əsasən Əhər çayı hövzəsində 1400 m yüksəklikdə Vərziqandan Noduza qədər davam edir.

Əhər düzünün qərbində vulkanik süxurlar 450 km^2 ərazidə geniş yayılmışdır. Tektonik mənşəli Əhər düzünün ərazisi təxminən 2566 km^2-dir ki, bunun da 2/3-si əkin üçün yararlıdır. Orta illik temperatur 10,3°C-dir, temperatur qradiyenti isə hər 100 metrə 0,55°C təşkil edir. İqlim şərtləri quruluğu ilə seçilir. Maksimum və minimum temperatur fərqi 58,6°C-dir, bu da yüksək temperatur amplitudası sayılır. Neogen dövründə Əhər çökəkliyi tamamilə göl olmuş, dördüncü dövrdə baş verən vulkanizm nəticəsində bir çox yerlərdə vulkanik süxurlar geniş yayılmışdır.

Qaradağ regionunun ən əsas çayları İri, Məlik, Hacılar, Kəringan, İlginə, Sötən, Mərzərud, Kələybər, Selin, Əhər və Qarasu çaylarıdır. Təkcə Əhər çayı qərbdən şərqə doğru axır, qalan çaylar əsasən cənub-şimal istiqamətlidir.

Qaradağın ən mühüm yaşayış məntəqələri Mərənd (182 min nəfər), Əhər (96 min nəfər), Kələybər (92 min nəfər) və Culfa (52 min nəfər) şəhərləridir. Bunlardan əlavə, bir sıra kiçik şəhərlər, o cümlədən Vərziqan, Xarvana, Siyəhrud, Xudafərin, Horand, Abış Əhməd, inkişaf etmiş mərkəzlər sayılırlar.

Əhər düzündən başqa, Qaradağda Xudafərin və Culfa düzləri də yer almışdır. Şimal yamacların orta meyilliliyi 36-38°-dir. Qaradağın ən hündür nöqtəsi Kiyaməki dağıdır (3414 m).

Hal-hazırda Qaradağ regionu geoloji cəhətdən tektonik qalxmaya məruz qalır. Buna sübut kimi çayların dərinləşməsini qeyd etmək olar. Bu ərazidə sürüşmələr geniş yayılmışdır. Onların əksər hissəi Leylabın şərqində və cənub yamaclarda Rangölün kənarlarında yayılmışdır.

Sürüşmələr İri, Yuxarı Hacılar, Aşağı Kələybər, Selen çayları hövzələrində, Qaradağın şimal ətəklərində, qərbdə Azğan çayı və Qaradağın cənubunda müşahidə olunur. Sürüşmələr, ümumiyyətlə, gilli süxurlarda baş verir. Yağış suları çatlar boyunca keçərək gilli süxurlara çatanda alt qatlarda yapışqanlıq azaldığından yamac boyunca ağırlıq qüvvəsinin təsiri ilə hərəkətə gəlir. Qaradağın şimal yamaclarında yerləşən 4 regionda belə proseslər fəal baş verir. Azğan çayı hövzəsində böyük qədim sürüşmə yerləri müşahidə olunur və belə ərazilərdə kəndlər salınmışdır.

Fizikanın əsas qanunlarından olan, hər bir cism maili səthdə ağırlıq qüvvəsinin təsiri ilə meyillilik bucağından asılı olaraq səth boyunca bir şərtlə hərəkət edir ki, digər qüvvələr, o cümlədən cismlər arasında sürtünmə və son arxalanma bu hərəkətə mane olmaya.

Suyun rolu səthi təşkil edən süxurların növü və suyun miqdarını nəzərə alaraq hərəkətli qatlarda və ərazinin tektonikasıyla bağlıdır.

Sürtünmə qüvvələri hərəkətin sürətinin azalmasına səbəb olur. Bu şəraitdə antropogen amillər, o cümlədən yol və mədən ekstraksiyaları və sairə amillər kütlə dayağının əsasını kəsib hərəkətə səbəb olur. Bu arada əsas kütlə hərəkəti


qüvvəsi maili hissədə olub, ağırlıq qüvvəsi, litologiya və coğrafi enliklə bağlıdır. Bu əsasda nə gədər yuxarı kütlə sürüşmə hissələri sıx süxurlardan təşkil olmuşsa, meyillilik çox olur və lazımi rütubət təmin olunduqda sürüşmə labüd olacaq. Kütlə hərəkətində mədən partlayışı və zəlzələ də effektli ola bilir.

Yuxarıda qeyd edildiyi kimi, sürüşmələr Qaradağın, əsasən, şimal yamaclarında inkişaf tapmışdır. Ümumiyyətlə, cənub yamaclarda ərazi hamar və vulkanik süxurlarla örtülüdür, torpağın qalınlığı və yağıntı miqdarı azdır (1-ci şəkil).

Bu şəraitin əksi, yəni dərin dərələr, çox yağıntı və qalın torpaq qatı şimal yamacda müşahidə olunur.

Qaradağ regionunda rast gəlinən 4 böyük sürüşmədən üçü şimal yamacda, biri isə cənub yamacda yer almışdır. Qeyd edilən regionlarda sürüşmənin yaranması üçün vacib olan amillərin, yəni litoloji quruluş, meyillik, rütubət və s., olması qədim və müasir sürüşmələri müşahidə etməyə imkan verir. Təbii amillərlə yanaşı, bu ərazidə antropogen təsiri də nəzərə almaq mütləq vacibdir. Misal üçün, Xarvana-Vərziqan yolu böyük Leylab sürüşməsini kəsir və əsas amillərdən sayılır. Ovrəng və Əncərd kəndləri Azğan çayı dərəsində olan sürüşmə ərazilərində yerləşib və hər ikisində də yollar sürüşməni kəsir. Ovrəng kəndinin sürüşməsində Səttar xan bəndi də effektli amil sayılır, beləliklə, kənd əhalisi ayrı yerə köçürülməlidir.

Orta Qaradağın cənub yamaclarında Azğan çayı sürüşmələri. Qədim və müasir sürüşmələr Azğan çayının qərb yamaclarında şimaldan cənuba doğru düz istiqamətdə yer almışdır. Sürüşmələrin yaranmasında əsasən fay, litologiya, yamacların ətəklərinin uçması, yağıntılar və antropogen amillər iştirak edir (2-ci şəkil).



1-ci şəkil. Qaradağ silsiləsi və ətraf ərazilərdə sürüşmələrin yayılma xəritəsi



2-ci şəkil. Azğan çayının qərbində qəqim və yeni sürüşmə

Tədqiq olunan ərazi maqmatik süxurlardan, daha dəqiqi, çayın şərq sahili igrembirit, qərb sahili isə andezit və bazaltdan təşkil olunmuşdur. Bu süxurların qalınlığı təqribən 200-500 metrdir və onlardan altda təbaşir yaşlı karbonatlı və gilli süxurlar yatır.

Sürüşmələr Azğan çayının 7-ci km-də təqribi olaraq 20 km uzunluğunda və 2 km enində Laman kəndi ətrafında çayın qərb sahilində baş vermişdir və hələ də davam etməkdədir.

Sürüşmələr bu hövzədə nisbətən hamar andezit və bazalt süxurlarında baş verir. Çayın hövzəsinin Lamandan Azğana qədər təqribi olaraq 7 km məsafədə çox meyilli olması çaya cavan forma vermiş və çay yatağını kəsərək ensiz istiqamətdə axımda olan qərb sahilini yuyur. Qərb sahil yuyulduğu üçün sürüşməyə səbəb olur. IV dövrdə bir neçə dəfə sürüşmə hadisəsi baş verdiyindən sürüşmə hüdudu 200-500 metrdir. Qış mövsümündə qərb küləkləri qar uçqunu yaradır, yamaclardakı qar isə əriyərək günortadan sonra donur, beləliklə, suyun təsiri ilə yamac sürüşmələri baş verir. Dərələrin morfologiyası Əhər çökəkliyi ilə əlaqədar olduğundan, yüksəkliklərin kəskin artması və hündür dağlarla məhdudlaşması Əhər çökəkliyində artıq yağıntıya səbəb olur. Bu da regionun rütubətlililiyinin və sürüşmə imkanının artmasına gətirib çıxarır.

Regionla bağlı tədqiqat işlərində hər il yeni sürüşmələrə çayın yuxarı hissələrində təsadüf edildiyi bildirilir. Qədim sürüşmələr nisbətən sabitləşmiş və yeni sürüşmələr baş verməkdədir. Çayla çökəkliyin əlaqə yerinin 7-ci km-də dərin və geniş qədim sürüşmələr baş verib və 5, 2,10 km^3 həcmində kütlələr 20-100 metrə yaxın aşağı çökmüşdür. İbriq kəndinin cənubunda sürüşmələr nəticəsində göl yaranmış və regionda 5-8-ci km hüdudunda 500 metrə qədər aşağı gedərək uçurum yaratmışdır. Qar uçqunu və kölgə olduğu üçün suyun təsiri ilə yeni sürüşmələr formalaşır.

On kilometr uzunluğunda başqa bir sürüşmə Əncrudda yaranmışdır. Bu kənd vulkan kütləsi üzərində yerləşdiyindən sürüşməkdədir. Region daşlıq olduğundan bitki örtüyü zəifdir və vulkanik süxurlardan təşkil olunmuş çayın qərb yamacları şiddətli parçalanmaya məruz qalmışdır; odur ki, su çatlarla alt qatlara nüfuz edərək sürüşməni şiddətləndirir. Regionda yer almış bütün sürüşmə amillərini, o cümlədən çayları, yağıntını, qarı, meyillik dərəcəsini, litologiyanı təhlil edərək belə bir nəticəyə gəlmək olur ki, Əncrud kəndini indiki yerindən şərq istiqamətinə köçürmək lazımdır (3-cü şəkil).

Regionda yer alan bütün sürüşmələr yuxarıda qeyd olunan amillərin təsiri ilə baş verir. Sürüşmələr ilin yağıntılı fəsillərində daha çox, quraqlıq illərdə isə az baş verir. Qərb yamaclarda istinad divarları inşa etməklə sürüşmənin qarşısını almaq mümkündür. Yol inşası zamanı, xüsusilə Əncrud kəndi ətrafında, onu sürüşmə sahəsindən kənarda keçirmək lazımdır. Misal üçün, Əhər-Vərziqan avtomobil yolu Səttar xan bəndi üzərindən keçərək, Ovrəng kəndi ətrafında böyük sürüşmə yaratmışdır. Bu səbəbdən də kəndi indiki yerindən xeyli kənara köçürmək lazımdır.

Qərbi Qaradağda Leylab sürüşmələri. Qərbi Qaradağda sürüşmələrin çoxu müxtəlif formalarda Dəstcird ilə Leylab məntəqələrində baş verir ki, bunlardan ən böyüyü Leylab sürüşməsidir. Onun aşağısında uzunluğu 30 km və eni 5 km şərqdən qərbə İri və Mərzabad çayı dərələrində



3-cü şəkil. Azğan çayı hövzəsində sürüşmə (Əncrud kəndi yaxınlığında)

eroziyaya uğramış əhəngdaşı və lil süxurları yayılmışdır. Eroziyanın təsiri nəticəsində baş verən Leylab sürüşməsinin kütləsi qırmızı rəngli konqlomerat və orta qatlarda lildən təşkil olunmuşdur. Kütlələrin yuxarı hissəsi əhəngdaşı və lil süxurlarından ibarətdir. Sürüşmə kütlələrinin sərhədində əhəngdaşı süxurlarının qaynaqları yerləşir. Qış fəslində qar uçqunu və qaynaqlar eroziyaya səbəb olur və Leylab transfer fay əməliyyatı blokvari hərəkət formasında olub, antropogen təsir nəticəsində Vərziqan-Xarvana yolu üzərində sürüşmə kütləsinin ortasından keçir. Sürüşmənin istiqaməti cənubdan şimala tərəf uzanır (4-cü şəkil).

Kütlənin eni 2,5 km, yerdəyişməsi 3 km-dir. Yerdəyişmə cənub-qərbdə başlayır, kütlə azsulu olduğundan hərəkət tədricən zəifləyir və lakin hələ də davam etməkdədir.

Ümumiyyətlə, region sürüşməyə meyillidir və Xarvana yaxınlaşdıqca meyillilik azalır və ərazi sabit vəziyyət alır, Leylab yaxınlığında isə sürüşmə kütləsi vulkan süxurlarına çataraq dayanmışdır.

Şərqi və Orta Qaradağın mərkəzində Mahmudkağı sürüşmələri. Bu geomorfoloji fenomen Mahmudkağı kəndinin cənub-qərbində Kələybər çayı hövzəsində yer almışdır. Açıq qırmızı və bənövşəyi (çəhrayı) əhəngdaşı, rif, və lillərdən təşkil olunmuş sürüşmələr və 10 km enində Vınıq və Şahyurdu zonalarında şərq-qərb istiqamətində yayılmışdır.

Bu hüdudlarda dağlar yüksəkdir və eroziya çöküntü əsasında dağlıq əraziyə daxil olur və bənzərsiz geomorfoloji şərait yaradır. Yüksəkliklərin azalması əhəngdaşı və lil formasiyasının yaranmasına səbəb olub, relyef xüsusiyyətləri yağıntı və rütubətin paylanmasına təsir edir. Regionda meşələr bəzi hissələrdə çox qalın, digər hissələrdə isə olduqca seyrəkdir.

Regionun əsas sürüşmə amilləri ərazinin rütubətliliyi, meyilliliyi, yamacların dayanıqsızlığıdır. Regionda heç bir fay müşahidə olunmur. Beləliklə, tektoniki amillər regionda sürüşmələrin yaranmasına güclü təsir göstərmir. Laylar dayanıqlı və yamaclar az meyilli olduğunda yeraltı sular sürüşmədə fəal rol oynayır.

Şərqi Qaradağda Zərbil sürüşmələri. Bu ekzodinamiki hadisə yuxarı Əsbhardan Motallıq isti su qaynaqlarının yaxınlığına qədər uzanan Selin çayının şərq ətəklərinə qədər baş verir. Regionu təşkil edən süxürlar gil və qum arasında yerləşən əhəngdaşı, gips və gillərdən ibarət olub, sürüşmələrə təkan verir. Çay yamaclarında meyillilik əsasən şimal yamacda şərq-qərb istiqamətindədir və ümumiyyətlə, litologiya və səth eroziyası yamaclar arasında dağıdıcı fəaliyyət göstərib sürüşmələrin əmələ gəlməsində əsas rol oynayır. Zərbilin şimal-qərbində 2 km məsafədə baş verən axımlı sürüşmə Selin çayının məcrasını doldurmuşdur. Selin çay hövzəsi Qaradağ regionunun ən təhlükəli sürüşmə rayonu hesab olunur (5-ci şəkil).

Nəticə

Regionda aktiv morfodinamik sistemlərin təhlili göstərir ki, burada tektonik və vulkanik fəaliyyətlər relyefin əsas formalarını yaratmış olsa da, müxtəlif iqlim elementləri relyef formalarını dəyişərək özünəməxsus morfoloji tiplər yaratmışdır. Regionda inkişaf etmiş əsas ekzogen proseslər dərinlik və yan eroziyası, yarğan eroziyası, sürüşmələr, ufantı və uçqunlardır.

Yarğan eroziyası quraq iqlim şəraitində, əsasən gil, lil və gips çöküntüləri inkişaf etmiş ərazilərdə baş verir. Bu proseslərin getdiyi ərazilərdə sürüşmə hadisələri geniş yayılmışdır.



4-cü şəkil. Leylab sürüşməsi



Şəkil 5. Selin çayı hövzəsində Zərbil sürüşməsi

Məsələn, Mərkəzi Qaradağın cənubunda, Azğan çayı hövzəsində Leylab sürüşməsini, Qərbi Qaradağın şimalında İri çayı hövzəsindəki sürüşmələrini, Mərkəzi Qaradağın şimalında Mahmudkağı və Şərqi Qaradağın şimalında Zərbil regionlarında baş verən sürüşmələri buna misal göstərmək olar. Zərbildə axımlar tamamilə sürüşmə formasında müşahidə olunur.

Yuxarıda qeyd olunanları yekunlaşdıraraq Qaradağ silsiləsi və ətraf əraziləri sürüşmə təhlükəliyinə görə 4 qrupa bölmək olar:

1) Yüksək təhlükəli ərazilər – Şərqi Qaradağda Zərbil və Qərbi Qaradağda Leylab sürüşmələri;

2) Təhlükəli ərazilər – Orta Qaradağın cənub yamaclarında Azğan çayı və Şərqi və Orta Qaradağın mərkəzində Mahmudkağı sürüşmələri;

3) Zəif təhlükəli ərazilər – Qaradağın dikyamaclı və səth eroziyası inkişaf etmiş əraziləri;

4) Potensial təhlükəli ərazilər – Qaradağın düzənlik əraziləri.

ƏDƏBİYYAT

ƏNSARİ, F., BULURÇİ, M.C. 1995. Ərdəbil vilayətindəki sürüşmələr. İranın Geoloji Təşkilatı. Tehran. 46.

HAŞİMİTƏBATƏBAEYİ, S. 1998. Ərdəbil vilayətinin bir hissəsində sürüşmələrin təhlükəsi əsasında zonalara bölünməsi. Bina və Şəhərsalma Nazirliyi. Tehran. 1, 2, 72.

NİKƏNDİŞ N., MİRSANEYİ R. 1995. Ərdəbil vilayətindəki sürüşmələrə bir baxış. Cihad Kəşavərzi Nazirliyinin Abxizdari İdarəsi. 63.

TƏLAYİ R.B. 2011. İranın Ərdəbil əyaləti Həştçin ərazisinin geologiyası və sürüşmə təhlükəlilik dərəcəsinin (riskinin) qiymətləndirilməsi. Bakı. *Geol-miner. elm. üzrə fəls.dokt. almaq üçün təqdim olunmuş dissert. avtoref.* 26.

ALEOTTI, P., GHOWDHURY, R. 1999. Landslide hazard assessment: summary review and new perspectives. *Bulletin of Engineering Geology and the Environment,* 58, 21-44.

ANBALAGAN, R. 1992. Landslide hazard evolution and zonation mapping in mountainous terrain. *Eng. Geol.*, 32, 269-277.

ASADIAN. F., ARZJANI. Z., VARAVIPOUR. M. 2010. Changes of microenvironment in Gilan city due to landslides. *Carpathian Journal of Earth and Environmental Sciences,* 5, 1, 93-102.

UROMEIHY, A., MAHDAVIFAR, M. R. 2000. Landslide hazard zonation of the Khorshrostam area, IRAN. *Bull. Eng. Geol. Env.,* 58, 207-213.

VARNES, D.J. 1984. The International Association of Engineering Geology. Landslide hazard zonation: a review of principles and practice. UNESCO. Paris. Iran. 21-22.

YESILNACAR, E., TOPAL, T. 2005. Landslide susceptibility mapping: A comparison of logistic regression and neural networks methods in a medium scale study, Hendek region, Turkey. *Engineering Geology*, 79, 251-266.

Məqaləyə g.-m.e.d. Y.H.İsrafilov rəy vermişdir

© M.Salehi, 2012

İRAN İSLAM RESPUBLİKASININ QƏZVİN OSTANI ŞƏHƏRLƏRİNİN TƏSNİFATI VƏ İNKİŞAF ƏMSALLARININ MÜƏYYƏN EDİLMƏSİ

M.Salehi

Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prosp., 31

Şəhərlərin yaranmasına, onların iqtisadi, sosial-demoqrafik potensialının formalaşmasına, əhalisinin sayına müxtəlif sayda amillər təsir göstərir. Onların müxtəlif dərəcədə özünü göstərməsi şəhərlərin inkişaf səviyyəsində kəskin fərqlərə gətirib çıxarır. Şəhərlərin inkişafı yüksəldikcə əhalinin iş yerləri ilə təminatı, onlara göstərilən xidmətlərin səviyyəsi də artır.

Şəhərlərin təsnifatı onların öyrənilməsi zamanı mühüm əhəmiyyət kəsb edir. Aparılan təsnifat onların inkişaf səviyyəsini müəyyən etməklə bərabər, şəhərlərdə əhalinin yaşayış səviyyəsini, iş yerləri ilə təminatını müqayisə etməyə, iqtisadi problemləri aradan qaldırmağa imkan verir. Qəzvin ostanında olan şəhərlər 7 göstərici əsasında qruplara ayrılmışdır. Bu zaman Antropi və Topsis modellərindən istifadə edilmişdir.

Giriş. Uzunmüddətli iqtisadi inkişafa nail olmaq üçün təbii-coğrafi şərait və ehtiyatlardan səmərəli istifadə edilməsi, əmək ehtiyatlarından istifadənin səmərəli təşkili, regionlar və yaşayış məntəqələrinin inkişafında olan uyğunsuzluğun azaldılması, ölkənin müxtəlif regionları və təsərrüfat sahələri arasında əlaqələrin yaradılması, onların müasir inkişaf problemlərinin və gələcək perspektivlərinin müəyyən edilməsi vacibdir. Ölkədə inzibati-ərazi bölgülər idarəetmə sisteminin təşkili, təsərrüfatın və əhalinin səmərəli ərazi təşkili məqsədi ilə aparılır. Bu bölgüyə daxil olan vahidlər, bir çox hallarda, təbii-coğrafi ehtiyatlardan, regionların iqtisadi və sosial-demoqrafik potensialından istifadə edilməsinə, iqtisadi əlaqələrin qurulmasına və ya iqtisadi inkişafın perspektiv istiqamətlərinə və iqtisadi inkişaf əmsalına görə qruplara ayrılır. İnkişaf səviyyəsində kəskin fərqlər yarandığından onların ayrılma meyarlarının müəyyən edilməsi müxtəlif olur və ölkə regionlarının müxtəlif istiqamətlərdə qruplaşması iqtisadi və sosial-demoqrafik problemlərin müəyyən edilməsi və aradan qaldırılması üçün əhəmiyyətli rol oynayır (Ruzbehan, 2000).

Ölkə regionlarının və burada yerləşən yaşayış məntəqələrinin daha çox yayılmış təsnifat meyarlarından birini sosial-iqtisadi inkişaf səviyyəsi və ixtisaslaşma təşkil edir. Bu prinsip əsasında aparılan bölgü geniş formada elmi ədəbiyyatlarda müzakirə olunur, ona görə bu problem bizim də mövzumuza çevrilmişdir. Təsərrüfat sahələrinin və ya bir regionun şəhərlərinin müxtəlif iqtisadi inkişaf əmsallarına malik olmasının əsasında iqtisadi, sosial, mədəniyyət, səhiyyə və sair sahələrin rolunun qiymətləndirilməsi vacibdir. Bu sahələrin bazasında və qəbul edilmiş meyarlar əsasında Qəzvin ostanındakı şəhərləri 5 qrupa ayırmaq olar. Onlar çox yüksək, yüksək, orta, aşağı və çox aşağı inkişaf səvəyyəsində olan şəhər qruplarıdır.

Bu bölgünün əhəmiyyəti ondadır ki, şəhərlərin inkişaf səviyyəsini müəyyən etməklə bir tərəfdən, məntəqələrdə əhalinin yaşayış səviyyəsini öyrənmək, onları müqayisə etmək, digər tərəfdən, şəhərlərin müasir sosial-iqtisadi inkiaşaf vəziyyətini, imkanlarını və problemlərini təhlil etmək mümkündür. Bu halda xüsusi layihələr və inkişaf proqramları hazırlamaqla şəhərlərin sosial-iqtisadi və mədəni problemlərinin həll edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə ehtiyac yaranır. Şəhərlər arasındakı mövcud fərqlər müxtəlif aspektli olsa da, bir çox şəhərləri səhiyyə, mədəniyyət və digər sosial xidmət səviyyəsi baxımından eyni qruplarda birləşdirməklə, onların sosial-iqtisadi inkişaf problemlərini eyni vəziyyətdə və istiqamətdə həll etmək olar. Bir çox şəhərlər iqtisadi və sosial inkişaf baxımından geridə qaldığına görə onların gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi prosesində mərkəzləşmiş maliyyələşmə sisteminin yaradılması zəruridir. Şəhərlərin sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, onların inkişafında olan fərqlərin azaldılması, şəhər əhalisinin yaşayış səviyyəsinin və maddi rifahının yüksəldilməsi üçün əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, əməktutumlu istehsal sahələrinin yaradılması da çox vacibdir.

Problemin müzakirəsi: Qəzvin ostanı şəhərlərinin reytinq cədvəlinin hazırlanmasında 7 istiqamətdə (əhali, sosial, iqtisadi, səhiyyə, mədəniyyət, sosial xidmət, infrastruktur obyektləri,

nəqliyyat və rabitə) 67 göstəricidən istifadə olunmuşdur. Bunun üçün Antropi və Tapsis modelləri əsasında reytinq cədvəlləri tərtib edilmişdir. Belə ki, insanların inkişaf indeksinin artımında, şəhərlərin inkişaf etməsində və onların hər birinin reytinq sırasının formalaşmasında bu amillərin payı müəyyənləşdirilmişdir.

Tədqiqat prosesində məlumatların toplanmasında kameral üsulundan yararlanılmışdır. Birinci mərhələdə məlumatların toplanması üçün elmi ədəbiyyatlardan, aylıq dərgilərdən, bu sahədə əvvəllər aparılmış tədqiqat işlərindən, dövlət layihələri, proqramları və sənədlərindən istifadə edilmişdir. Elektron ünvanlar, kartoqrafik mənbələr, elmi-tədqiqat institutları və dövlət orqanlarının məlumatları da geniş şəkildə tədqiqata cəlb edilmişdir. Eyni zamanda, məlumatların toplanması zamanı əhalinin ümumi siyahiyaalınma materiallarından, mənzil-kommunal təsərrüfatlarının siyahılarından, ostan və nahiyələrin illik statistika hesabatlarından, ticarət və gömrük təşkilatlarının, polis və sosial təminat şöbələrinin məlumatlarından geniş istifadə olunmuşdur.

Statistik məlumatların, tədqiqatların nəticələrinin hesablanması və təhlili üçün kompyuter proqramı təminatında Spss, Excel, Mintab proqramlarına, tədqiqat xəritələrinin hazırlanmasında isə Arc GIS kompyuter proqram-məlumat təminatına müraciət edilmişdir.

Tədqiqat məlumatlarının təhlilindən əldə edilmiş nəticələrin əhəmiyyətini və tədqiqatların məqsədlərini nəzərə alanda mənbələrin yenidən gözdən keçirilməsinə ehtiyac yaranır. Təcrübi sınaqlar vasitəsilə çıxarılmış nəticələr və asılı dəyişənlər arasında əlaqə yaradılması zərurəti ortaya çıxır. Təqiqatın ən mühüm dəyişənləri, əməliyyat anlayışları və miqyasli qiymətləndirmə formaları aşağıdakı kimidir.

Qəzvin ostanındakı şəhərlərin təsərrüfat strukturu asılı dəyişən kimi 8 bölümdən təşkil olmuşdur və onların hamısı miqyaslı ölçülərə malikdirlər. Onlar əsaslı şəkildə aşağıdakı indekslərlə birlikdə öyrənilir:

1) Əhalinin strukturu bölməsində araşdırılan göstəricilər öz əksini 4 əmsalda tapır: əhalinin sayının faizlə artım tempi (C_1); iqtisadi cəhətdən fəal əhalinin faizlə xüsusi çəkisi (C_2); bütün əhaliyə nisbətən inzibati əraziyə gələn miqrantların faizlə xüsusi çəkisi (C_3) və tərs asılı vaxt (C_4).

2) Sosial struktur bölməsində araşdırılan göstəricilərin ən mühümləri 5 əmsalda əhatə olunur. Burada kişi tələbələrin faizlə payı (C_5), qadın tələbələrin faizlə payı (C_6), kişilərin təhsil səviyyəsi (C_7), qadınların təhsil səviyyəsi (C_8) və yaşayış üçün ev təsərrüfatının əksi (C_9) göstəricilərindən istifadə olunmuşdur.

3) İqtisadi struktur bölməsinin göstəricilərinə həqiqətən Qəzvin ostanı şəhərlərinin strukturunda ən mühüm və təsiredici amilə malik olan 11 əmsaldan istifadə edilir. Onlara sənaye sahələri işçilərinin faizlə payı (C_{10}), dağ-mədən sahələri işçilərinin faizlə payı (C_{11}), sosial xidmətlər bölməsi işçilərinin faizlə payı (C_{12}), nəqliyyat sahələri işçilərinin faizlə payı (C_{13}), səhiyyə sahələri işçilərinin faizlə payı (C_{14}), təlim və təhsil sahələri işçilərinin faizlə payı (C_{15}), kişilərin məşğulluq əmsalı (C_{16}), qadınların məşğulluq əmsalı (C_{17}), işsizlik səviyyəsinin tərsi (C_{18}), sənaye müəssisələrinin sayı (C_{19}) və qadınların təsərrüfatda iştirak səviyyəsi (C_{20}) aiddir.

4) Sağlamlıq və səhiyyə strukturu bölməsində aparılan təhlillər 7 əmsala şamil olunur. Onlara min nəfərə görə ümumi xəstəxanaların sayı (C_{21}), klinikaların sayı (C_{22}), apteklərin sayı (C_{23}), ali təhsilli həkimlərin sayı (C_{24}), orta tibb işçilərinin sayı (C_{25}), laboratoriyaların sayı (C_{26}) və reabilitasiya mərkəzlərinin sayı (C_{27}) daxildir.

5) Mədəniyyət strukturu bölməsində mədəniyyət amilləri və onun göstəriciləri əsas götürülür. Şəhərlərin təsərrüfat strukturunun əsas komponentləri arasında bu sahədə 13 mədəniyyət göstəricisi əmsallarının öyrənilməsi nəzərdə tutulmuşdur. Bu əmsallara dövlət universitetlərinin sayı (C_{28}), Pəyamnur universitetlərinin sayı (C_{29}), özəl universitetlərin sayı (C_{30}), elmi-tətbiqi universitetlərinin sayı (C_{31}), min nəfərə təhsil müəssisələrində olan yerlərin sayı (C_{32}), hər müəllimə görə tələbələrin sayı (C_{33}), teatr zalından istifadə etmək əmsalı (C_{34}), min nəfərə teatr zallarında yerlərin sayı (C_{35}), min nəfərə ümumi kitabxanaların sayı (C_{36}), min nəfərə kinoteatrlarda yerlərin sayı (C_{37}), ümumi parkların sayı (C_{38}), min nəfərə yardım komitə vahidlərinin sayı (C_{39}), min nəfərə ümumi məhkəmələrin sayı (C_{40}) və min nəfərə məscidlərin sayı (C_{41}) daxildir.

6) Şəhərin infrastruktur obyektləri və sosial xidmət strukturu bölməsində ən mühüm göstəricilərə 14 əmsal daxil edilir. Onlara min nəfərə ət kombinatının sayı (C_{42}), yanğın söndürən stansiyaların sayı (C_{43}), zibil daşıyan maşınların sayı (C_{44}), mehmanxanaların sayı (C_{45}), tərəvəz satış məntəqələrinin sayı (C_{46}), şəhər qəbiristanlıqlarının sayı (C_{47}), ümumi məişət xidməti yerlərinin sayı (C_{48}), restoranların sayı (C_{49}), ümumi hamamların sayı (C_{50}), sənaye şəhərlərinin

sayı (C_{51}), yaşayış vahidlərinə görə icazə verlimiş binaların nisbəti (C_{52}), hər mənzilə qaz abunəçiləri (C_{53}), hər mənzilə işıq abunəçiləri (C_{54}) və hər nəfərə bələdiyyə büdcəsi (C_{55}) daxil edilmişdir.

7) Nəqliyyat və rabitə strukturu bölməsində bu sahələr şəhərin təsərrüfat strukturunun əsas sahələri hesab olunur. Burada 12 əmsaldan istifadə olunmuşdur. Bu əmsallara min nəfərə telefon aparatlarının sayı (C_{56}), məşğul olan telefonların sayı (C_{57}), poçt idarələrinin sayı (C_{58}), avtobusların sayı (C_{59}), marşrut taksilərinin sayı (C_{60}), taksilərin sayı (C_{61}), şəhər şərnişin nəqliyyatı vasitələrinin sayı (C_{62}), əlaqə şəbəkəsindən istifadə indeksi (C_{63}), min nəfərə şəhər agentiliklərinin sayı (C_{64}), anbarların sayı (C_{65}), Silo sayı (C_{66}) və soyuducuların sayı (C_{67}) şamil olunmuşdur.

Tapsis (Topsis) modeli. Bir neçə əmsalı olan (Mutiple Attribute Decision Making) göstəricilərdən istifadə qaydalarından biri Tapsis üsulu sayılır. Dövretmə modellərindən başqa (o modellərdə əmsallar arasında mübadilə mühümdür), sazişli (Compromising-Subgroup) qrup modelindən (sazişli altqrupu modelində bir üstün seçim olmalıdır və məsələnin həllində bu, ideal seçim sayılmalıdır) istifadə olunmuşdur; modelin bütün strukturu və yolları aşağıdaki kimidir (Əsgarpour, 2008):

1) Qəraralma matrisin təşkili. Bu matris N indeksdən və M məkanından təşkil olunmuşdur;

2) Əmsallara qiymət vermək Antropi Şanun modeli vasitəsilə həyata keçirilmişdir; bu model aşağıdaki kimidir (Əkbari və b., 2000):

$$n_{ij} = \frac{x_{ij}}{\sum_{i=1}^{n} X_{ij}} \qquad \text{1-ci əlaqə}$$

Sonrakı mərhələdə əmsalların hər birinin Antropi qiyməti hesablanır:

$$\sum j = -k \sum_{i=1}^{m} \left[n_{ij} \ln(n_{ij}) \right] \Rightarrow k = \frac{1}{\ln(m)} \qquad \text{2-ci əlaqə}$$

Əmsalların hər birinin Antropi dəyəri sıfır və bir arasında olan dəyərdir. Hər bir əmsalın Antropi yoxlamasından sonra hər əmsalın xəta ölçüsü aşağıdaki əlaqə vasitəsilə əldə olunur:

$$d_j = 1 - E_j \qquad \text{3-cü əlaqə}$$

Hər əmsalın qiymət göstəricisi (2-4) nömrəli əlaqə vasitəsilə qiymətləndirilir.

$$W_j = \frac{d_j}{\sum_{i=1}^{n} d_j} \qquad \text{4-cü əlaqə}$$

Burada, W = əmsalın qiyməti və d = xəta dərəcəsidir.

3) Miqyassiz matrisin təşkili: bu mərhələdə qəraralma matrisin mövcudluğu "miqyassız" matrisə aşağıdaki əlaqə istifadəsi ilə çevrilir:

$$n_{ij} = \frac{x_{ij}}{\sqrt{\sum_{i=o}^{n} x_{ij}^{\,2}}} \qquad \text{5-ci əlaqə}$$

4) Miqyassız çəkili matris: bu matris miqyassız matrisin hər indeksin ağırlıq matrisinə vurmasından əldə edilir;

5) Müsbət və mənfi idealları tapmaq: bu mərhələdə hər indeksin böyük dəyəri ideal müsbət kimi (+A) və hər indeksin aşağı dəyəri mənfi ideal kimi (-A) təyin edilir;

6) Ayrılma ölçüsünün hesablanması: bu mərhələ 5-ci mərhələnin yardımı ilə hər bir seçimin evklid məsafəsini, məsələ indeksi ilə bagli suallara müsbət və mənfi ideal cavabların verilməsi ilə müşayiət olunur:

$$D_i^{+} = \sqrt{\sum_{j=1}^{n} (V_{ij} - V_j^{+})^2} \rightarrow i = 1,2,...,m \qquad \text{6-cı əlaqə}$$

$$D_i^{-} = \sqrt{\sum_{j=1}^{n} (V_{ij} - V_j^{-})^2} \rightarrow i = 1,2,...,m \qquad \text{7-ci əlaqə}$$

7) Aİ nisbi yaxınlığın hesablanması ideal yolu ilə: bu nisbi yaxınlıq aşağadakı kimi tərif olunur:

$$0 \le CL_i \le 1, \; CL_i = \frac{D_i^{-}}{D_i^{-} + D_i^{+}} \rightarrow i = 1,2,...,m \qquad \text{8-ci əlaqə}$$

8) Son mərhələdə seçimlərin hər biri (şəhərlər) CLİ əsasında reytinq sırasına düzülür.

Qəzvin ostanı şəhərlərinin təsnifatı. 2006-cı ildə (1385) Qəzvin ostanında aparılan sonuncu siyasi-inzibati və idarəetmə bölgüsünə əsasən, 25 şəhər olmuşdur. Bu şəhərlər 7 istiqamətdə (əhali, sosial, iqtisadi, səhiyyə və müalicə, infrastruktur, nəqliyyat və rabitə) 67 indeksə əsasən qruplara ayrılmışdır (Cədvəl). Təsnifat zamanı Antropi qiymətvermə və Tapsis modeli qaydasından istifadə edilmişdir. Verilmiş cədvəlin nəticələrinə əsasən, Qəzvin şəhəri əhalisinin sosial-mədəni və demoqrafik göstəricilərinə görə o, ən inkişaf etmiş və yüksək potensiala malik olan məntəqədir. Xakəli şəhəri sosial-mədəni səviyyəsinə və potensialına görə ən geri qalmış və imkanı az olan yaşayış məntəqəsi kimi müəyyən edilmişdir.

Tapsis modelindən istifadə etmək yolu ilə hesablanmış Qəzvin ostanı şəhərlərinin reytinq əmsalları, 2006-cı il (1385)

İndekslər / Şəhərlərin adı	Əhali əmsalları		Sosial əmsalları		İqtisadi əmsallar		Səhiyyə əmsalları		Mədəniyyət əmsalları		İnfrastruktur əmsalları		Nəqliyyat və rabitə əmsalları		Birləşdirilmiş əmsal	
	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə
Qəzvin	0,4785	1	0,6795	9	0,8848	1	0,4164	18	0,5725	1	0,8801	1	0,9355	1	0,8193	1
Takistan	0,4390	3	0,6713	15	0,3462	2	0,3527	22	0,3357	4	0,2057	4	0,1411	2	0,2565	2
Alvənd	0,3692	10	0,6853	2	0,2284	3	0,3884	19	0,2233	8	0,3318	2	0,0171	13	0,2342	3
İqbaliyyə	0,4376	4	0,6753	13	0,1688	4	0,3218	23	0,5012	3	0,1985	5	0,0531	7	0,2152	4
Abiyek	0,4183	7	0,6815	6	0,1096	5	0,3648	20	0,3344	5	0,2244	3	0,0758	4	0,1744	5
Məhəmədiyyə	0,3002	16	0,6770	11	0,0689	9	0,4782	8	0,5118	2	0,1274	7	0,0800	3	0,1737	6
Bidəstan	0,4201	6	0,6812	7	0,0164	16	0,4769	9	0,1381	12	0,1556	6	0,0695	5	0,1150	7
Mahmudabad	0,4604	2	0,6759	12	0,0748	8	0,7076	2	0,2492	7	0,1027	9	0,0556	6	0,1014	8
Şərifiyyə	0,2882	17	0,6840	4	0,0294	11	0,5628	5	0,2671	6	0,0478	13	0,0270	10	0,0912	9
Boyin Zəhra	0,3335	13	0,6695	10	0,1016	6	0,4368	12	0,1747	10	0,0375	18	0,0451	8	0,0626	10
Şal	0,3882	9	0,8646	3	0,0492	10	0,4255	15	0,0011	20	0,1033	8	0,0263	11	0,0611	11
Əsfrorin	0,2441	20	0,6339	5	0,0258	12	0,4321	13	0,1950	9	0,0232	23	0,0171	14	0,0610	12
Dansfahan	0,4252	5	0,6690	17	0,0166	15	0,4398	10	0,1641	11	0,0465	14	0,0304	9	0,0579	13
Ziyaabad	0,1526	24	0,6640	18	0,0922	7	0,6100	3	0,0114	19	0,0151	25	0,0042	23	0,0537	14
Xorrəmdəşt	0,3238	14	0,4572	24	0,0183	13	0,0000	24	0,0010	22	0,0717	10	0,0135	12	0,0389	15

Mənbə: 2007-ci ildə (1386) Qəzvin ostanının illik statistik hesabatı və 2009-cu ildə (1389) hazırlanmış hesabat.

Cədvəlin davamı

Tapsis modelindən istifadə etmək yolu ilə hesablanmış Qəzvin ostanı şəhərlərinin reytinq əmsalları, 2006-cı il (1385)

İndekslər / Şəhərlərin adı	Əhali əmsalları		Sosial əmsalları		İqtisadi əmsallar		Səhiyyə əmsalları		Mədəniyyət əmsalları		İnfrastruktur əmsalları		Nəqliyyat və rabitə əmsalları		Birləşdirilmiş əmsal	
	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	pillə	Tapsis ölçüsü	Pillə
Abgərm	0,3069	15	0,6860	1	0,0091	20	0,0000	25	0,0009	25	0,0594	11	0,0030	17	0,0291	16
Nərce	0,2469	19	0,6799	8	0,0166	14	0,7634	1	0,0332	13	0,0446	15	0,0135	15	0,0267	17
Saqqızabad	0,1669	23	0,4116	25	0,0062	23	0,5856	4	0,0011	21	0,0317	20	0,0047	21	0,0264	18
Ərdaq	0,2277	21	0,6740	14	0,0080	21	0,4383	11	0,0119	15	0,0484	12	0,0017	18	0,0228	19
Avəc	0,3403	12	0,6166	21	0,0036	25	0,4784	7	0.0063	23	0,0417	17	0,0093	16	0,0206	20
Xakəli	0,1484	25	0,5905	22	0,0056	24	0,4211	17	0,0016	24	0,0434	16	0,0041	24	0,0187	21
Müəllim Kəlaye	0,1952	22	0,6416	19	0,0231	18	0,4225	16	0,0118	16	0,0309	21	0,0046	22	0,0158	22
Kohin	0,2737	18	0,6292	20	0,0117	19	0,3539	21	0,0126	18	0,0317	19	0,0076	20	0,0154	23
Razmiyan	0,4138	8	0,6698	16	0,0074	22	0,4304	14	0,0119	14	0,0248	22	0,0099	19	0,0128	24
Sirdan	0,3635	11	0,5752	23	0,0146	17	0,4761	6	0,0029	17	0,0163	24	0,0012	25	0,0102	25
Dağınıq əmsalı (C.V)	0,42		0,19		1,84		0,51		1,24		1,42		2,68		1,34	

Mənbə: 2007-ci ildə (1386) Qəzvin ostanının illik statistik hesabatı və 2009-cu ildə (1389) hazırlanmış hesabat.

Sosial inkişaf sahəsində Abgərm və Saqqızabad şəhərləri sıra ilə inkişaf etmiş və zəif potensialı olan şəhərlər kimi müəyyən olunmuşdur. Məişət-mənzil problemlərinin çox olmasına görə böyük şəhərlər bu təsnifatda yüksək yerlər tuta bilməmişdir. Bu təsnifatda bir növ uyğunlaşma və nisbətən yaxşı uyğunluq ostanın şəhər təsərrüfat strukturunda əsas kimi götürülmüşdür. Şəhərlərin qeyri-bərabər inkişafının ölçüsü təxminən 0,19 olmuşdur.

Başqa mühüm və vacib əmsallardan biri şəhərlərin təsərrüfat strukturunda və sosial-iqtisadi inkişafında mühüm rol oynayan iqtisadi göstəricilərdir. Bu əmsalın əsasında Qəzvin inkişaf etmiş şəhər kimi və Avac ən geridə qalmış şəhər kimi müəyyən edilmişdir. Bu əmsalın müəyyən edilməsi əsasında ostanın böyük şəhərləri və nahiyələrin inzibati mərkəzləri idarəetmə mövqeyinə və dövlət orqanlarının cəmləndiyinə görə yüksək mövqedə dayanır. Şəhərlərin iqtisadi bazasını təşkil edən zavodların olması iş yerlərinin yaranmasına və əhalinin işlə təmin olunaraq yaxşı yaşamasına imkan vermişdir. Nəticədə bölgüdə şəhərlər müvafiq olaraq yüksək pillələrdə durur.

Kiçik və yeni yaranmış şəhərlər zəif iqtisadi potensialına görə az sayda iş yerlərinə malikdirlər, əhalinin xeyli hissəsi bitkiçilik və heyvandarlıq sahələrində çalışır. İqtisadi baxımdan onlar zəif inkişaf etmişlər və təsnifatda aşağı səviyyədə dururlar. Qeyri-bərabər inkişaf əmsalı 1,84 olmuşdur ki, bu da şəhərlər arasında inkişaf səviyyəsində olan kəskin fərqlərin göstəricisidir.

Səhiyyə-müalicə əmsallarının müqayisəsi əsasında Abgərm inkişaf etmiş, Nərcə ən geri qalmış şəhər kimi qiymətləndirilmişdir. Qəzvin şəhəri bu təsnifatda çox əlverişsiz mövqedə dayanır və 18-ci pillədə yerləşir. Bu vəziyyət onu göstərir ki, səhiyyə-müalicə müəssisələrinin fəaliyyəti əhalinin ehtiyaclarına uyğun deyildir. Mədəniyyət, infrastruktur və rabitə göstəricilərinin təsnifatında da Qəzvin inkişaf etmiş şəhər, Abgərm, Ziyaabad və Sirdan şəhərləri göstərilmiş əmsallarda ən geri qalmış şəhərlər hesab edilmişdir. Cəmi 25 şəhərdə 67 indeksdən Qəzvin şəhəri Tapsis ölçüsü ilə 0,8193 əmsal ilə inkişaf etmiş şəhər kimi, Sirdan şəhəri Tapsis ölçüsü ilə 0,0102 əmsalı ilə ostanın ən geri qalmış şəhəri kimi qiymətləndirilmişdir.

Beləliklə, aparılmış təhlillər əsasında aşağıdakı nəticələrə gəlmək olar:

– Şəhərlərin öyrənilməsi zamanı şəhər əmələgətirən amillərin müəyyən edilməsi, onların rolunun təhlili məntəqələrin inkişafında olan problemlərin aradan qaldırılması üçün mühüm əhəmiyyət kəsb edir;
– Şəhərlərin sosial-iqtisadi, demoqrafik inkişafında əksini tapan fərqlər regionlarda məskunlaşmanın inkişafı, əhalinin həyat səviyyəsi, onlara göstərilən sosial-mədəni xidmətlərin əsas göstəriciləridir;
– Şəhərlərin öyrənilməsi zamanı onların təsnifatı mühüm əhəmiyyət kəsb edir. Təsnifat nəticəsində şəhərlərin regionların iqtisadi inkişafında rolu, ayrı-ayrı sahələrdə üzləşilən problemlər müəyyən edilir, onların aradan qaldırılması yolları göstərilir;
– İİR-in Qəzvin ostanında şəhərlərin təsnifatı göstərir ki, əhalinin sayının çox olması, yüksək iqtisadi potensialı həmişə onların heç də qabaqcıl yer tutmasına gətirib çıxarmır;
– Aparılan təsnifat bölgüsü göstərir ki, şəhərlərin inkişafında iqtisadi amil, sosial və iqtisadi infrastruktur digər amillərə nisbətən daha böyük təsir gücünə malikdir.

ƏDƏBİYYAT

RUZBEHAN, M. 2000. İqtisadi inkişafın əsasları. Taban. Tehran.11.

ƏSGARPOUR, M. C. 2008. Çoxmeyarlı qərar. *Tehran Universitetinin Xəbərləri*, Tehran.

ƏKBARI, M., NEMƏT, U., ZAHEDI, K. 2000. Reytinq metodlarının istifadəsi və bir neçə göstəricili qərar. Ölkənin bələdiyyələri və kənd bələdiyələri yayınları təşkilatı. Tehran.

KARDAN, A. 1999. Qloballaşma dövründə milli və yerli mədəniyyət. *Mədəni mühəndis,* 10, 11. Mədəni inqilabın Ali Şurası. Tehran.

Məqaləyə c.e.d. E.K.Əlizadə rəy vermişdir